Şübhəsiz ki, iman gətirənlərdən, yəhudilərdən, sabiilərdən və xaçpərəstlərdən Allaha və axirət gününə inanıb yaxşı iş görənlərin heç bir qorxusu yoxdur və onlar qəm-qüssə də görməzlər!

*(Qurani-Kərim, əl-Maidə, 69)*

## "İlham Əliyev. Prezidentin portreti dəyişikliklər fonunda" kitabının təqdimatı keçirilib

Milli Məclisin deputatı, yazıçı, Əməkdar Jurnalist Elmira Axundovanın Moskvanın "Politiçeskaya ensiklopediya" nəşriyyatında rus dilində çap edilmiş "İlham Əliyev. Prezidentin portreti dəyişikliklər fonunda" ("Ильхам Алиев. Портрет президента на фоне перемен") kitabının noyabrın 30-da "Gülüstan" sarayında təqdimatı keçirilib.

səh. 2

www.scwra.gov.az

*Dinimiz milli-mənəvi sərvətimizdir.*

# Cəmiyyət və Din

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 11 (304) / NOYABR 2016-cı il

# Azərbaycan Prezidenti İlham Əliyev "BakuTel-2016" sərgisi ilə tanış olub



Noyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva XXII Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgisi - "Bakutel-2016" ilə tanış olublar.

AzərTAc xəbər verir ki, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə dövlətimizin başçısına və xanımına sərgi barədə məlumat verib.

Bildirilib ki, sərgidə dünyanın 18 ölkəsindən 200 şirkət iştirak edir. Builki sərgidə 9 ölkə - Avstriya, Belarus, İran, İtaliya, Fransa, Niderland Krallığı, Sloveniya, Türkiyə və Xorvatiya milli stendlərdə öz ölkələrinin aparıcı şirkətləri ilə yanaşı, həm Azərbaycan, həm də bütün Xəzəryanı region üçün innovativ layihələri, eləcə də İKT sahəsində məhsul və xidmətlərini təqdim edir.

İştirakçıların 40 faizi "Bakutel" sərgisinin daimi eksponentləridir. Sərgi iştirakçıları arasında aparıcı İKT şirkətləri, Azərbaycanın mobil rabitə operatorları, internet provayderləri, sistem inteqratorları və tanınmış brendlərin distribüterləri var. Ənənəvi olaraq, sərgidə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi ilə iştirak edən bir sıra ölkələrin milli stendləri təqdim olunur. Nazirliyin pavilyonunda rabitə, poçt, "elektron hökumət" sahələrində həyata keçirilmiş yeni layihələr nümayiş etdirilir.

Regionun ən böyük tədbirlərindən biri olan "Bakutel" sərgisi 20 ildən artıqdır ki, hər il telekommunikasiya bazarının aparıcı iştirakçılarını öz platformasında bir araya toplayır.

Beynəlxalq Telekommunikasiya İttifaqı kimi mötəbər təşkilatın dəstəyi, eləcə də Dünya Sərgi Sənayesi Assosiasiyası tərəfindən sərgiyə verilmiş keyfiyyət nişanı "Bakutel" sərgisinin beynəlxalq nüfuzunu bir daha təsdiq edir.

Dörd gün davam edəcək sərgi çərçivəsində görmə qabiliyyəti məhdud olan insanlar üçün "Danışan kitabxana", "Google Art Project", "Muzeylərin rəqəmsallaşdırılması" layihələrinin təqdimatı, startapların geniş iştirakı baş tutacaq.

Dövlətimizin başçısı və xanımı sərginin pavilyonları ilə yaxından tanış olublar.

## Azərbaycanda multikultural ənənələrin və dinlərarası münasibətlərin inkişafında xidmətlərinə görə bir qrup şəxsin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

## S Ə R Ə N C A M I

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycanda multikultural ənənələrin və dinlərarası münasibətlərin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsinlər:

Həsənli Sabir Hüseyn oğlu
Əliyev Füzuli Həbib oğlu
Yuşvayev Simax Barux oğlu
Şneor Seqal Yosef oğlu
Nesterov Aleksandr Gennadiyeviç.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 15 noyabr 2016-cı il.*

### Azərbaycan ilə İspaniya arasındakı əlaqələr ümumi maraqlar əsasında inkişaf etdirilir



səh. 2



### "Milli-mənəvi dəyərlər və kütləvi informasiya vasitələri" mövzusunda iki həftəlik seminar başlayıb

səh. 3

### Tolerantlığın Azərbaycan nümunəsi



səh. 4-5

### "Dini radikalizmlə mübarizədə dini icmaların fəaliyyətinin təşkili" mövzusunda tədbirlər keçirilib

səh. 8

### "Əsas hədəfimiz dini ekstremizmin fəsadlarıyla yanaşı, onun səbəblərini də ilkin mərhələdə aradan qaldırmaqdır..."

səh. 9

# "İlham Əliyev. Prezidentin portreti dəyişikliklər fonunda"






*(əvvəli 1-ci səhifədə)*

Tədbirdə Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev, dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, elm xadimləri, ictimaiyyətin nümayəndələri iştirak edibler.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik Akif Əlizadə tədbiri açaraq Azərbaycan Respublikası dövlət mükafatı laureatı Elmira Axundovanın "İlham Əliyev. Prezidentin portreti dəyişikliklər fonunda" əsərinin təqdimatının ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olduğunu bildirib.

Azərbaycanın tarixində tarixi şəxsiyyətlərin çox olduğunu vurğulayan akademik bildirib ki, XXI əsrdə belə tarixi şəxsiyyət Prezident İlham Əliyevdir. AMEA-nın prezidenti əsərdə müəllifin Azərbaycan Prezidenti İlham Əliyevin gözəl, əzəmətli və orijinal portretini öz qələminin gücü ilə tam təsvir etdiyini vurğulayıb. Bildirilib ki, bu kitab Azərbaycan həqiqətlərinin rus dilində daha geniş coğrafiyada yayılmasına mühüm töhfə verəcək.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov kitabda Prezident İlham Əliyevin çoxşaxəli fəaliyyətindən və ölkəmizin ictimai-siyasi həyatı ilə bağlı mühüm məsələlərdən ətraflı bəhs olunduğunu vurğulayıb.

AMEA-nın Qafqazşünaslıq İnstitutunun direktoru, professor, Milli Məclisin deputatı Musa Qasımlı XXI əsrin görkəmli dövlət xadimi İlham Əliyevə həsr edilmiş kitabın təqdimatının mühüm hadisə olduğunu bildirib. Prezident İlham Əliyevin Azərbaycan tarixində indiyədək görülməyən mühüm uğurlara imza atdığını vurğulayan M.Qasımlı bütün bu nailiyyətlərin əsərdə yüksək səviyyədə təqdim olunduğunu qeyd edib.

Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Zabelin Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi uğurların əsərdə mükəmməl formada oxucuların diqqətinə çatdırıldığını bildirib.

Qeyd edək ki, nəfis tərtib olunmuş kitabda tanınmış yazıçı-publisist Elmira Axundova postsovet məkanının ən praqmatik siyasi xadimlərindən biri İlham Əliyev haqqında faktlar və materiallar əsasında açıq və inandırıcı şəkildə, sadə və aydın dildə söhbət açır, onun uğur fenomenini təhlil edir. Müəllif "Uğurlu, nüfuzlu şəxsiyyət, prezident olmaq üçün nə etmək lazımdır?", "Xalqın lideri missiyası nədir?" suallarına cavab axtarır.

Açıq mənbələrdən götürülmüş sənədlərdən, müəllifin xalqımızın ümummilli lideri Heydər Əliyevi və Prezident İlham Əliyevi əhatə edən insanlardan şəxsən aldığı nadir müsahibələrdən istifadə olunmuş kitabda toplanmış faktlar, hadisələr və rəylər Azərbaycan Prezidenti haqqında geniş məlumat verir.

# Azərbaycan ilə İspaniya arasındakı əlaqələr ümumi maraqlar əsasında inkişaf etdirilir




Azərbaycan nümayəndə heyəti noyabrın 8-də və 10-da İspaniyanın Madrid və Mursiya şəhərlərində keçirilən "Dinlərarası dialoqun sülhə və multikultural həyata töhfəsi" mövzusundakı konfranslarda iştirak etmək üçün bu ölkədə səfərdə olub.

Azərbaycan Respublikasının İspaniya Krallığındakı səfirliyinin və İspaniyanın Mursiya Katolik Universitetinin birgə təşkil etdiyi tədbirlərdə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmov, həmçinin ənənəvi dini konfessiya başçıları – Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Bakı dağ yəhudiləri dini icmasının başçısı Milix Yevdayev və Bakıdakı katolik icmasının ordinarisi Vladimir Fekete iştirak ediblər.

Səfərin ilk günündə Azərbaycan nümayəndə heyəti İspaniya Senatında olub, Senatın prezidenti Pio Qarsia Eskudero ilə görüşüb.

Sonra Azərbaycan nümayəndə heyəti İspaniya Senatının binası, burada yerləşən qədim və zəngin kitabxana ilə tanış olub.

Daha sonra nümayəndə heyətinin üzvləri İspaniyanın Təhsil, Mədəniyyət və İdman Nazirliyində olublar. Burada Azərbaycan nümayəndə heyəti nazir müavini Fernando Venzo Saynz və nazirliyin universitetlər üzrə katibliyinin rəhbəri Xorxe Saynz Qonzales ilə görüşüb.

Görüşün sonunda qarşılıqlı xatirə hədiyyələri təqdim olunub.

* * *

Həmin gün İspaniyanın paytaxtı Madriddə "Dinlərarası dialoqun sülhə və multikultural həyata töhfəsi" mövzusunda konfrans keçirilib. Tədbir Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən elan edilmiş "Multikulturalizm ili" çərçivəsində Azərbaycanın İspaniyadakı səfirliyinin və İspaniyanın Mursiya Katolik Universitetinin dəstəyi ilə təşkil olunub.

Konfransda Azərbaycan nümayəndə heyəti, həmçinin İspaniyada fəaliyyət göstərən diplomatik korpusun rəhbərləri və nümayəndələri, elm və din xadimləri, kütləvi informasiya vasitələrinin təmsilçiləri, bu ölkədə yaşayan azərbaycanlılar iştirak ediblər.

Konfransı giriş sözü ilə açan təşkilatçılardan biri Əli Evsen dinin dövlətlərin həyatında oynadığı roldan və tədbirin əhəmiyyətindən danışıb.

İştirakçıları salamlayan Azərbaycanın İspaniyadakı fövqəladə və səlahiyyətli səfiri Anar Məhərrəmov konfransın məhz İspaniyada keçirilməsinin təsadüfi olmadığını qeyd edib, Sivilizasiyalar Alyansının 2005-ci ildə İspaniya və Türkiyənin təşəbbüsü ilə yaradıldığını bildirib.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev çıxışında əsasən Azərbaycanın cəmiyyətdəki etnik-mədəni müxtəlifliklərin düzgün tənzimlənməsi sahəsindəki təcrübəsindən danışıb. O diqqətə çatdırıb ki, Azərbaycan əhalisinin çoxmilli tərkibi onun sərvətidir, üstünlüyüdür. "Tarix boyu Azərbaycanın yürütdüyü tolerantlıq siyasətindən xeyli danışmaq olar", - deyən Kamal Abdullayev bunun əsasında cəmiyyətimizin nümayiş etdirdiyi ədalət, mərhəmət, şəfqət, acıma, anlayış, özünəinam kimi xüsusiyyətlərin dayandığını bildirib.

Şeyxülislam Allahşükür Paşazadə çıxışına İspaniyada yeni qurulmuş hökuməti təbrik etməklə başlayıb, ona fəaliyyətində müvəffəqiyyət arzulayıb. Qeyd olunub ki, bu gün yaşadığımız həyatın reallıqları dinlər və mədəniyyətlərarası münasibətlərdə müqəddəs kitablarda yazılmış təməl anlayışlara riayət etməyin vacibliyini bir daha təsdiq edir. Əfqanıstan, İraq, Fələstin, Liviya, Suriya, Yəmən və digər ölkələrdə silahlı münaqişələr, insan qırğını, mədəni irsin məhvi Avropanın bəzi ölkələrində islamofobiya təzahürlərini dərinləşdirir, məcburi miqrantlara qarşı aqressiv münasibət kəskinləşir. Bütün Qafqazın şeyxi belə halları sivilizasiyalar arasında qütbləşməni dərinləşdirən, radikalizm və ekstremizmə təkan verən amil, dinlər və millətlərarası dialoqa vurulan ciddi zərbə kimi dəyərləndirib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı isə müstəqillik dövründə ölkəmizdə dinlər və etnik qruplar arasındakı münasibətlərin Ümummilli Lider Heydər Əliyevin dövlətçilik konsepsiyasına uyğun olaraq daha da möhkəndiyini qeyd edib. Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov çıxış edərək Azərbaycanın tarixən müxtəlif dinlərin və mədəniyyətlərin qorunduğu məkan olduğunu bildirib. Torpaqlarımızın 20 faizindən çoxunun Ermənistan tərəfindən işğal olunmasına, bir milyondan artıq azərbaycanlının öz torpaqlarından qovulmasına, işğal altında olan ərazilərimizdə çoxsaylı dini, mədəni və tarixi abidələrin dağıdılmasına rəğmən, Bakı başda olmaqla Azərbaycan ərazisindəki erməni kilsələri dövlət tərəfindən qorunur, lazım gəldikdə təmir olunur.

Tədbir çərçivəsində Azərbaycanın multikulturalizm dəyərlərinə verdiyi önəm haqqında film nümayiş olunub.

Sonda tədbirin bir sıra iştirakçısı xüsusi mükafatlarla təltif olunub.

Konfrans işini İspaniyanın Mursiya şəhərində davam etdirib.

# Dövlət Komitəsində görüşlər



*Noyabrın 2-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində Mübariz Qurbanlı Türkiyə Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Erkan Özoralla görüşüb.*

Səfiri təyinatı münasibətilə təbrik edən Dövlət Komitəsinin sədri Azərbaycan-Türkiyə dövlətləri arasında mövcud olan səmimi, qardaş münasibətdən danışıb. O bildirib ki, Türkiyə-Azərbaycan xalqları və dövlətləri arasında tarix boyu formalaşmış qardaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi, bütövlükdə türk-İslam dünyasının mədəni-mənəvi vəhdətinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi yolunda iki ölkə hər zaman səy göstərib və göstərməkdə də davam edəcək.

Səfir də öz növbəsində Dövlət Komitəsinin sədrinə təbrikindən dolayı təşəkkür edib. O, Azərbaycanla Türkiyə arasında qardaşlıq münasibətlərindən, bu əlaqələrin sağlam və davamlı inkişafından danışıb.

Görüşdə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı və müavini Səyavuş Heydərov da iştirak ediblər.

* * *

*Noyabrın 3-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı İndoneziyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Hüsnan Bəy Fanani ilə görüşüb.*

Dövlət Komitəsinin sədri İndoneziya-Azərbaycan arasında iqtisadi, siyasi və mədəni sahələrdə əlaqələrin getdikcə genişləndiyini qeyd edərək, dini məsələlərlə bağlı ölkələrimizin müvafiq qurumlarının əməkdaşlığının zəruri olduğunu vurğulayıb.

Komitə sədri İndoneziya səfiri Hüsnan Bəy Fananiyə beynəlxalq təşkilatlarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatında ölkəsinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın haqlı mövqeyini dəstəklədiklərinə görə təşəkkürünü bildirib.

Səfir Azərbaycanın zəngin multikultural və tolerant dəyərlərə sahib ölkə olduğunu bildirərək, ölkəmizin bu sahədə təcrübəsini öyrənməkdə maraqlı olduqlarını qeyd edib. Hüsnan Bəy Fanani İndoneziya xalqına Azərbaycanı təqdim etməkdən qürur duyduğunu və



turizm sahəsində ikitərəfli əlaqələr istiqamətində əhəmiyyətli işlər görüldüyünü söyləyib.

Səfir səmimi qəbula görə Dövlət Komitəsinin sədrinə təşəkkürünü bildirib.

* * *

*Noyabrın 22-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Qazaxıstanın Vətəndaş cəmiyyəti və dini işlər nazirinin müavini Abzal Nukenovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.*

İki ölkə arasında əlaqələrin yüksək səviyyədə olduğunu bildirən Dövlət Komitəsinin sədri Azərbaycan-Qazaxıstan arasında iqtisadi, siyasi və mədəni sahələrdə əlaqələrin getdikcə genişləndiyini qeyd edərək, dini məsələlərlə bağlı ölkələrimizin müvafiq qurumlarının əməkdaşlığının zəruri olduğunu vurğulayıb.

Azərbaycanla qardaşlıq əlaqələrindən məmnunluqlarını bildirən Abzal Nukenov Azərbaycanın din siyasətinin və dini radikalizmlə mübarizə sahəsində təcrü-



bəsinin dərindən öyrənilməsində maraqlı olduqlarını qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb, iki ölkənin din siyasətini həyata keçirən qurumlar arasında əlaqələrin möhkəmlənməsinin vacibliyindən və birgə tədbirlərin keçirilməsindən bəhs olunub.

* * *

*Noyabrın 28-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı İranın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cavad Cahangirzadə ilə görüşüb.*

Komitə sədri Azərbaycanla İran arasında tarixən mövcud olan dostluq və qardaşlıq münasibətlərindən bəhs edərək, əlaqələrin inkişafında Ulu Öndər Heydər Əliyevin xüsusi rolunun olduğunu, hazırda bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyib. Mübariz Qurbanlı iki ölkə arasında din sahəsində də əlaqələrin yüksək səviyyədə olduğunu bildirib. Azərbaycanda dövlət-din münasibətlərinin



mükəmməl formada qurulduğunu, məzhəblər arasında heç bir ayrı-seçkiliyin mövcud olmadığını önə çəkən Komitə sədri ölkəmizin dünyaya tolerantlıq nümunəsi sərgilədiyini diqqətə çatdırıb.

Azərbaycan - İran arasında etimad və dostluq münasibətlərinin bundan sonra da davam edəcəyini deyən səfir qarşılıqlı səfərlərin təşkilində, dini radikalizm və ekstremizmlə mübarizə çərçivəsində birgə tədbirlərin həyata keçirilməsində maraqlı olduqlarını bildirib.

Səmimi qəbula görə minnətdarlıq edən Cavad Cahangirzadə bu cür görüşlərin ölkələrimiz arasında münasibətlərin daha yüksək xətlə inkişaf etməsinə töhfə verəcəyini ifadə edib.

Görüşdə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, sədr müavini Gündüz İsmayılov və İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin Mədəniyyət Mərkəzinin rəhbəri İbrahim İbrahimi də iştirak ediblər.

# "Milli-mənəvi dəyərlər və kütləvi informasiya vasitələri" mövzusunda iki həftəlik seminar başlayıb

Noyabrın 25-də Qafqaz Müsəlmanları İdarəsi (QMİ), Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Mətbuat Şurasının birgə layihəsi əsasında təşkil edilən "Milli-mənəvi dəyərlər və kütləvi informasiya vasitələri" mövzusunda iki həftəlik seminarın açılışı olub.

Jurnalistlər üçün təşkil edilən seminarın açılışından əvvəl QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə, DQİDK sədri Mübariz Qurbanlı, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, Mətbuat Şurasının sədri, deputat Əflatun Amaşov və din xadimləri jurnalistlərlə görüşüblər.

Allahşükür Paşazadə bildirib ki, Azərbaycanda indiyədək jurnalistlərlə din xadimləri arasında belə yüksək səviyyəli görüş keçirilməyib: "Əlbəttə, ayrı-ayrı jurnalistlərlə görüşlərimiz olub, ancaq bu cür geniş şəkildə görüş birinci dəfədir ki, baş tutur. Mətbuat bizim ən yaxın dayağımız olmalıdır, biz sizə güvənməliyik, bir-birimizlə məsləhətləşməliyik. Bu seminarın da məqsədi odur ki, həm jurnalistlərin dini bilikləri artsın, həm də din xadimləri ilə jurnalistlər arasında münasibətlər inkişaf etdirilsin. Məqsədimiz odur ki, jurnalistlərlə din xadimləri arasında əlaqələri inkişaf etdirək və dövlətçiliyin xeyrinə işlər görək". Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov qeyd edib ki, Azərbaycanda din dövlətdən ayrı olsa da, əslində din və dövlət həmişə bir yerdə olub. Azərbaycanda bütün dinlərə



bərabər şəkildə dəstək göstərilib və göstərilir.

S.Novruzov qeyd edib ki, vaxtilə başqa ölkələrə demokratiya və digər adlar altında təsir göstərməyə çalışanlar indi də din pərdəsi altında təsir göstərməyə çalışırlar. Ona görə də jurnalistlər bu məsələdən yazarkən hər şeyi ölçüb-biçərək yazmalıdırlar, dini təbliğat məsələsində daha fəal olmalıdırlar.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, bu seminar Azərbaycanın mətbuat tarixində böyük yenilikdir. Mətbuat nümayəndələri üçün ayrılıqda bir sahə üzrə kursun təşkil olunması, həmin sahəyə aid mütəxəssislərin iştirakı seminarın əhəmiyyətindən xəbər verir. Bu ideyanın müəllifi Şeyxülislam Allahşükür Paşazadədir. Layihənin məqsədi dini mövzuda yazan, eyni zamanda, dinlə əlaqədar mövzularda bu və ya digər məsələlərə aydınlıq gətirmək istəyən jurnalistlərlə bir araya gəlmək və onları maraqlandıran məsələlər ətrafında müzakirələr aparmaqdır.

Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov qeyd edib ki, seminar dini məsələlərdən yazan jurnalistlərə çox böyük kömək olacaq. Bu seminar sayəsində jurnalistlərin dinlə bağlı kifayət qədər geniş təsəvvürü olacaq və onlar müəyyən biliklər əldə edəcəklər.

Sonra müvafiq mövzuda müzakirələr aparılıb.

# Tolerantlığın Azərbaycan nümunəsi

## Bu, dünyada artıq ən mükəmməl modellərdən biri kimi qəbul edilir

Mübariz QURBANLI,
Azərbaycan Respublikasının
Dini Qurumlarla İş üzrə
Dövlət Komitəsinin sədri



Azərbaycanda tarixən ayrı-ayrı mədəniyyətlərin, dinlərin, millətlərin, etnik qrupların nümayəndələri qarşılıqlı hörmət, birgəyaşayış şəraitində bir ailənin üzvləri kimi yaşamışlar. Müxtəlif mədəniyyətlərə və dinlərə mənsub etnosların tarix boyu bu torpaqlarda əmin-amanlıq şəraitində yaşamasında xalqımıza xas olan humanizm və xoşniyyətlilik kimi ali dəyərlər, eyni zamanda, İslam dəyərləri müstəsna rola malikdir. Ölkəmizin coğrafi mövqeyi, əhalisinin etnik tərkibi qədim dövrdən burada fərqli dinlərin mövcudluğuna şərait yaratmış, Bütpərəstlik, Zərdüştilik, Yəhudilik, Xristianlıq, İslam və digər dini inanclar Azərbaycan ərazisində yayıla bilmişdir.

Yəhudilərin ölkəyə gəlişi bəzi tarixçilərə görə, eramızdan əvvələ - 586-cı ildə Babil hökmdarının Yerusəlimi zəbt etdiyi dövrə gedib çıxır. Həmin dövrdə İudeya çarlığından qaçan yəhudilər ölkəmizdə özlərinə sığınacaq tapmışlar. Azərbaycanda yəhudilər üç icma - dağ yəhudiləri, aşkenazilər və gürcü yəhudiləri ilə təmsil olunurlar.

Xristianlıq isə hələ İsa Məsihin həvariləri dövründə Qafqaz Albaniyası vasitəsilə bu torpaqlarda yayılmışdır. Ölkəmizdə Xristianlığın bu gün pravoslavlıq, katoliklik və protestantlıq məzhəbləri, həmçinin müxtəlif sektant icmaları mövcuddur.

Azərbaycanda İslamın yayılması erkən İslam fütuhatı dövrünə təsadüf edir. İslam dininin bu ərazilərdə yayılmasından sonra əhali arasında dözümlülük, birgəyaşayış mühiti daha da güclənmişdir. Çünki mərhəmət və sevgi dini olan İslamda başqalarının düşüncələrinə hörmətlə yanaşmaq anlayışı yüksək mənəvi dəyər və mədəniyyət kimi dəyərləndirilir. Bu baxımdan səsrlər boyu müsəlmanlarla bərabər, digər dinlərin mənsubları da regionda dinc yanaşı yaşamışlar. Lakin bu birgəyaşayışa tarixin müxtəlif dövrlərində, xüsusən də XIX əsrin əvvəllərində Rusiya imperiyası ilə Qacar İran dövləti arasında bağlanan Gülüstan və Türkmənçay müqavilələrindən sonra xələl gətirilməyə çalışılmışdır. Belə ki, çar Rusiyası Şimali Azərbaycan ərazisinə sahib olduqdan sonra əhalini milli-mənəvi dəyərlərindən uzaqlaşdırmaq üçün ölkədə yad mənəviyyatın və mədəniyyətin təbliğini prioritet məsələyə çevirmişdi. Azərbaycan 1918-ci il may ayının 28-də öz müstəqilliyini elan etdikdən sonra ölkədə çar Rusiyasının mənfur siyasəti olan din və məzhəb ayrı-seçkiliyinə son qoyuldu, dini dəyərlər milli ideologiyanın tərkib hissəsi kimi qəbul edildi. İstiqlal Bəyannaməsində milli, dini, ictimai vəziyyətindən, cinsindən, məzhəbindən asılı olmayaraq, ölkənin bütün vətəndaşlarına bərabər hüquqlar verildiyi bəyan olundu. Ölkə vətəndaşlarının hüquqlarının təmin edilməsinə yönəldilmiş qərar və tədbirlərdə əhalinin vicdan azadlığının təmin olunması xüsusi yer tuturdu.

1920-ci ilin aprel ayında Azərbaycanın müstəqilliyinə son qoymaqla SSRİ xalqımızın milli-dini dəyərlərinə düşmən kəsildi. Doğrudur, işğalın ilk illərində bolşevik-kommunist ideoloqlar bütün dinlərin, o cümlədən də İslamın özünəməxsusluğunu və dindarların milli heysiyyətini nəzərə almaq məcburiyyətində qalmışdılar. Hökumət dindarları ələ almaq məqsədilə müxtəlif gedişlərə əl atırdı. Məsələn, Qurban və Ramazan bayramları dövlət səviyyəsində qeyd edilirdi. Lakin ötən əsrin 20-ci illərinin sonu 30-cu illərinin əvvəllərində, SSRİ-nin başqa respublikalarında olduğu kimi, Azərbaycanda da dinə qarşı hücumlar başlanıldı. İllər keçdikcə dinlə mübarizə daha geniş vüsət aldı, məscidlər və mədrəsələr bağlandı, o cümlədən din xadimləri repressiya qurbanına çevrildilər. Qurani-Kərim zərərli kitab hesab olunaraq qadağan edildi. Azərbaycanın bütün ərazisində məscidlər dağıdılaraq anbar, kitabxana, yaxud da muzeyə çevrildi. Beləliklə, ötən əsrin 20-ci illərinin əvvəllərində Sovet hakimiyyətinin elan etdiyi vicdan, din azadlığı heçə endirildi və bu, İkinci Dünya müharibəsinədək davam etdi. 1943-cü ildə müharibənin gedişində əsaslı dönüş yarandıqdan sonra Sovet hökuməti Qərb dövlətləri ilə münasibətləri yaxşılaşdırmaq üçün müəyyən siyasi gedişlər etdi, onlarla əməkdaşlıq üçün müəyyən islahatlar həyata keçirməyə məcbur oldu.

Ötən əsrin sonlarına yaxın Sovet imperiyasının süquta uğraması dünyanın mövcud siyasi xəritəsinin dəyişməsinə, bir sıra qlobal problemlərin yaranmasına gətirib çıxardı. Həmin dövrdə dünya iqtisadi, ekoloji və demoqrafik problemlərlə yanaşı, mənəviyyat sahəsində də böyük böhran yaşayırdı. Bundan başqa, bəzi siyasi dairələr tərəfindən mədəniyyətlər və dinlər arasında fərqlərin qabardılması “sivilizasiyaların toqquşması” nəzəriyyəsini meydana çıxarmışdı. Məqsəd isə bu yolla xalqlara, millətlərə, dövlətlərə təsir göstərib özlərinin “arzuları”nı reallaşdırmaq idi.

Dünya düzənini yenidən qurmağa cəhd göstərildiyi belə bir zamanda Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi. Sovetlər Birliyinin süquta uğraması nəticəsində yeni eranın başlaması, başqa sözlə, ateizmə əsaslanan cəmiyyətdən milli-dini dəyərlərə hörmətlə yanaşılan cəmiyyətə keçid heç də asan olmadı. Həmin dövrdə ölkənin müharibə şəraitində olması, ağır iqtisadi-sosial vəziyyətlə yanaşı, hakimiyyət kürsüsü uğrunda gedən daxili mübarizə onu parçalanma təhlükəsi ilə üz-üzə qoymuşdu. Bu vəziyyət, şübhəsiz ki, dini duruma da təsirsiz ötüşmürdü. Daxili qarışıqlıqdan, yaranmış qeyri-sabit sosial-iqtisadi vəziyyətdən istifadə edən bəzi radikal dini cərəyanların nümayəndələri “xeyriyyəçilik” adı altında Azərbaycanda fəaliyyətə başladılar. Əslində, əksəriyyətinin niyyətinin saf olmadığı, şəxsi və ya qrup maraqlarına hesablandığı bir müddət sonra aydın oldu. Çox keçmədi ki, ölkədə dövlət-din münasibətlərinin hüquqi əsasları formalaşdırıldı. Vətəndaşların dini etiqad və vicdan azadlığı təmin olundu, bu sahə ilə bağlı qanunvericilik aktları beynəlxalq hüquq normalarına uyğunlaşdırıldı. Ölkədə dini durumun müsbət və münaqişələrdən uzaq məcrada inkişafı üçün əlverişli şərait yarandı. Eyni zamanda, dövlətin din siyasəti respublikamızın milli maraqlarını, onun vətəndaşlarının təhlükəsizliyini təmin etmək, ümumiyyətlə, cəmiyyətdə sabit vəziyyət yaratmaq üzərində köklərdi. Ölkəmiz dünyəvi, demokratik, hüquqi, unitar dövlət olmaqla yanaşı, həm də öz milli-mənəvi dəyərlərinə söykənən dövlətə çevrildi. Uzun illər ibadət ocaqlarının fəaliyyətinə, dini ayinlərin icrasına qoyulmuş qadağalar aradan qaldırıldı, yeni ibadət evlərinin və dini təhsil müəssisələrinin əsası qoyuldu. Bu sahədə yerli milli kadrların hazırlanmasına, dini maarifləndirmə işində əsasən daxili potensialdan istifadə olunmasına diqqət yetirilməsi vacib faktora çevrildi.

Təbii ki, bütün bunlar Azərbaycan müstəqilliyini bərpa etdikdən bir müddət sonra xalqın təkidi ilə yenidən hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyevin dövlət-din münasibətləri sahəsindəki uğurlarının nəticəsi idi. Bu uğurların əsas səbəbi hər sahədə olduğu kimi, dinlə bağlı siyasətin də təməlindən sağlam, düzgün istiqamətdə qurulmasında idi. Məhz Ümummilli Liderin sayəsində din sahəsində sabitlik təmin edildi, milli-mənəvi dəyərlərə münasibət kökündən dəyişdi, xalqın keçmişinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərilməyə başlanıldı. Dövlət-din münasibətləri beynəlxalq hüquq normaları müstəvisində tənzimləndi, xalqımız öz milli, dini bayramlarını azad və sərbəst şəkildə qeyd etmək hüququ qazandı. Uzun illər baxımsız qaldığına görə dağılmış ibadət ocaqları yenidən bərpa edilib xalqın istifadəsinə verildi. Dini konfessiyalar arasında dözümlülük mühiti daha da inkişaf etdirildi. Ulu öndər milliyyətindən, irqindən, dinindən asılı olmayaraq, Azərbaycanda məskunlaşan hər kəsin bütün sahələrdə hüquq bərabərliyinin dövlət tərəfindən təmin edilməsini prinsipial məsələ kimi bəyan etdi: “...Ölkəmizin vətəndaşları dini, irqi mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq eyni hüquqlara malikdirlər və onların hüquqları Azərbaycan dövləti tərəfindən qorunur. Əmin ola bilərsiniz ki, biz bu prinsiplərimizə daim sadiq qalacağıq və Azərbaycan vətəndaşlarının din, dil mənsubiyyətindən və siyasi baxışlarından asılı olaraq bir-biri ilə münaqişəyə girməsinə gələcəkdə də yol verməyəcəyik”.

1992-ci ildə qəbul olunan, sonrakı illərdə zamanın tələbinə uyğun olaraq bir sıra ciddi dəyişikliklər edilən “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının Qanunu ölkədə vicdan azadlığının təmin edilməsi, dini qurumların statusu, onların fəaliyyətinin əlaqələndirilməsi ilə bağlı bütün məsələlərə aydınlıq gətirdi. Həmin dövrdə respublikamızda dövlət-din münasibətlərinin tənzimlənməsi ilə bağlı qəbul edilmiş qanunvericiliyin icrası, bu sahədə müəyyən bir idarəetmə orqanının yaradılmasına ehtiyac duyulurdu. Beləliklə, 2001-ci ildə Ümummilli Lider Heydər Əliyevin imzaladığı Fərmanla Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması ilə dövlət-din münasibətlərinin inkişafında yeni mərhələyə qədəm qoyuldu. Dövlət Komitəsi dövlət-din münasibətlərinin tənzimlənməsi və inkişafında, din haqqında qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin verilməsində, müvafiq qanunvericiliyin icrasına nəzarətin, eyni zamanda dövlət-din münasibətləri sahəsində məqsədyönlü proqramların həyata keçirilməsində böyük rol oynayır.

Ümummilli Lider Heydər Əliyevin digər sahələrdə olduğu kimi, dövlət-din münasibətləri sahəsində bünövrəsini qoyduğu siyasət onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkədə müstəqillik illərində milli-mənəvi dəyərlərin qorunub saxlanılması, o cümlədən yeni dini məbədlərin inşası, mövcud olanların əsaslı təmiri və yenidən bərpası istiqamətində çoxsaylı işlər görülüb. Əgər Sovetlər Birliyi dağılan dövrdə Azərbaycanda cəmi 17 məscid fəaliyyət göstərirdisə, bu gün onların sayı 2000-dən çoxdur. Təkcə son 10 il ərzində ölkədə 140-a yaxın məscid inşa olunub, 80-dən artıq məsciddə əsaslı təmir və yenidənqurma işləri aparılıb, o cümlədən dövlət vəsaiti hesabına onlarca məscid tikilib, yaxud əsaslı bərpa olunub. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına və tapşırığına uyğun olaraq Bibiheybət məscid-ziyarətgah kompleksində, Təzəpir məscidində, İçərişəhər Cümə və Həzrət Məhəmməd məscidlərində, Əjdərbəy, Şamaxı və Sumqayıt Cümə məscidlərində əsaslı təmir, bərpa və yenidənqurma işləri aparılıb. Gəncə şəhər İmamzadə ziyarətgahı yenidən bərpa edilərək xalqın istifadəsinə verilib. Dövlət başçısının tapşırığı ilə Binəqədi rayonunda inşa edilən və ölkənin ən böyük məscidi olan Heydər məscidinin 26 dekabr 2014-cü ildə açılışı olub.

Eyni zamanda, hazırda ölkə ərazisində 13 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Vətəndaşlarının böyük əksəriyyəti müsəlmanlar olan ölkəmizdə digər dinlərə də xüsusi qayğı göstərilir. Hələ 1920-ci ildə bağlanmış Jen Mironosets baş kilsəsinin binası 1991-ci ildə Rus Pravoslav Kilsəsinə verilmişdir. 1999-cu ildə məbəddə bərpa işləri başlanılmış, 2001-ci ildə isə başa çatdırılmışdır. Azərbaycanda səfərdə olan Moskvanın və bütün Rusiyanın Patriarxı II Aleksi 27 may 2001-ci il tarixdə bu məbədi müqəddəs elan etmiş və ona baş kafedral kilsə statusu vermişdir. Kilsənin tərkibində pravoslav ədəbiyyatı kitabxanası, uşaqlar üçün “Bazar günü” məktəbi, böyüklərin katexizasiyası üzrə məktəb, həmçinin yeməkxana fəaliyyət göstərir.

2002-ci il mayın 22-23-də Roma papası II İohann Pavelin Azərbaycana səfərindən sonra Ümummilli Lider Heydər Əliyevin göstərişi əsasında Bakının mərkəzində Roma-katolik kilsəsi üçün yer ayrılmış, 2005-ci ildə məbədin tikintisinə başlanmışdır. Sevindirici haldır ki, kilsənin tikintisinə Qafqaz Müsəlmanları İdarəsi və Azərbaycanda fəaliyyət göstərən digər konfessiyaların nümayəndələri maddi yardım göstərmişlər. Tikinti işləri 2006-cı ildə başa çatdırılmış, rəsmi açılış mərasimi 2008-ci il martın 7-də keçirilmişdir. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva və Vatikanın Dövlət katibi Tarçizio Bertone iştirak etmişlər.

Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və qayğısı ilə dağ yəhudiləri üçün yeni ibadət ocağı inşa edilmiş, 5 aprel 2011-ci ildə sinaqoqun rəsmi açılış mərasimi keçirilmişdir. Avropada ən böyük sinaqoqlardan biri hesab edilən Avropa və Gürcüstan yəhudilərinin sinaqoqu 2003-cü il martın 9-da açılmışdır. Sözügedən ibadət yeri son 60-80 ildə Yaxın Şərqdə tikilmiş birinci sinaqoq sayılır. Ümumiyyətlə, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra buradakı yəhudi icması beynəlxalq yəhudi təşkilatları ilə əlaqələrini möhkəmlətmiş, öz dini məktəblərini, mədəniyyət mərkəzlərini, cəmiyyətlərini, qəzetlərini yaratmışlar.

Bu gün dünya miqyasında demokratik dəyər kimi təbliğ olunan tolerantlıq Azərbaycan xalqının min illiklər boyu formalaşmış xarakterik xüsusiyyətidir. Xalqımız tolerantlığa təkcə hüquq yox, həm də mənəvi dəyər prizmasından yanaşır. Belə olmasaydı, müxtəlif tarixi dövrlərdə fərqli dinlərin mənsubları və etnik qruplar burada özlərinə sığınacaq tapa bilməzdilər.

Tolerantlığın Azərbaycan xalqının xarakterik xüsusiyyəti olduğunu sübut etmək üçün geniş tədqiqat aparılmasına ehtiyac yoxdur. Çünki əsrlər boyu kilsələr və sinaqoqlar məscidlərlə yanaşı fəaliyyət göstərmiş, nəticədə Vətənimiz tolerantlıq mərkəzlərindən birinə çevrilmişdir.

Tolerantlıq Azərbaycan xalqının tarixi uğuru olmaqla yanaşı, həm də gələcək inkişafının və sabitliyinin təminatıdır. Deməli, Azərbaycan xalqının gələcəyi üçün bu uğuru həm təbliğ etməli, qoruyub saxlamalı, həm də möhkəmləndirməliyik.

Xalqımızın zəngin milli-mənəvi dəyərlərinə, onun tərkib hissəsi olan dözümlülük və birgəyaşayış ənənəsinə böyük həssaslıqla yanaşan Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın ölkədə ibadət evlərinin bərpası və yeni məscidlərin tikilməsi istiqamətində gördüyü işlər də əvəzsizdir. Fond “Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində təkcə ölkədə yeni məscidlər inşa etməyib, həm də bu torpaqlarda yüz illiklər boyu xalqımızla dinc yanaşı yaşamış dinlərin nümayəndələrinin öz mədəni müxtəlifliyini qoruyub saxlamaq, dini etiqadlarını sərbəst yeri-

⇨ 5

# "Dini radikalizmlə mübarizə və maarifçilik işinin təşkili"

**Noyabrın 15-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Xətai Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini radikalizmlə mübarizə və maarifçilik işinin təşkili" mövzusunda konfrans keçirilib. Konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı, Xətai Rayon İcra Hakimiyyətinin (RİH) başçısı Razim Məmmədov, Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri Hüseynbala Mirələmov, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, orta məktəb direktorları və müəllimləri, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.**



Tədbirdən əvvəl Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Rayon İcra Hakimiyyətinin başçısı Razim Məmmədov Ulu Öndər Heydər Əliyevin RİH-in inzibati binasındakı büstünün önünə gül dəstələri qoyublar.

Konfrans DQİDK-nın sifarişi ilə çəkilən, dini ekstremizm və radikalizmin fəsadlarından bəhs edən "Fitnə" sənədli filminin nümayişi ilə başlayıb.

Filmin nümayişindən sonra Rayon İcra Hakimiyyətinin başçısı Razim Məmmədov tədbiri açaraq, radikalizmin bütün cəmiyyət üçün təhlükə olduğunu, hər bir vətəndaşın radikalizmə qarşı mübarizədə fəal iştirakının zəruriliyini bildirib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı dini radikalizmin yaranması səbəbləri və onun fəsadları barədə geniş məlumat verib. Bildirib ki, dini radikalizmə qarşı mübarizə həm də maarifçilik yolu ilə aparılmalıdır. Azərbaycan xalqı öz milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə, ailə dəyərlərinə bağlıdır. Qeyd edib ki, ölkəmizdə dini xurafata və dini radikalizmə qarşı mübarizə aparılır. Bu mübarizə çərçivəsində Dövlət Komitəsi Azərbaycan Respublikasının Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirinin Xidməti, Qafqaz Müsəlmanları İdarəsi (QMİ), Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu və digər aidiyyəti qurumlarla birgə tədbirlər həyata keçirir.

Mübariz Qurbanlı qeyd edib ki, dövlət müstəqilliyimizi bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərinin qorunması və gələcək nəsillərə olduğu kimi çatdırılması dövlətin əsas prinsiplərindən birinə çevrilib. Ulu Öndər Heydər Əliyevin birbaşa müəllifliyi ilə hazırlanmış Konstitusiyamızda dini etiqad azadlığı, dövlət-din münasibətlərinin əsas prinsipləri aydın əks olunub.

Dövlət Komitəsinin sədri dövlətin dinə qayğısından bəhs edərək, bütün ənənəvi dinlərin fəaliyyəti, eyni zamanda vətəndaşların öz ibadətlərini sərbəst şəkildə həyata keçirmələri üçün hər cür şərait yaradıldığını vurğulayıb.

Milli Məclisin deputatı, YAP Xətai rayon təşkilatının sədri Hüseynbala Mirələmov çıxış edərək gənclərin vətənpərvər vətəndaş, ailə dəyərlərinə, adət-ənənələrə bağlı şəxsiyyət kimi formalaşmasında məktəb təhsilinin vacibliyini qeyd edib.

QMİ-nin Xətai rayonu üzrə səlahiyyətli nümayəndəsi, Əhmədli qəsəbə məscidi dini icmasının sədri və axundu Hacı Murad Cəfərov Qurani-Kərimdə başqa dinlərə və mədəniyyətlərə dözümlü münasibətin öz əksini tapdığını bildirib. Axund qeyd edib ki, Azərbaycan tarixən müxtəlif mədəniyyətlərin və dinlərin yaşadığı bir məkan olub. Hazırda ölkəmizdə üç səmavi dinin nümayəndələri qarşılıqlı anlaşma və mehribanlıq şəraitində yaşayırlar.

Tədbirin sonunda məruzələr ətrafında fikir mübadiləsi aparılıb.

# Tolerantlığın Azərbaycan nümunəsi

## Bu, dünyada artıq ən mükəmməl modellərdən biri kimi qəbul edilir

⇦4 nə yetirmək üçün ibadət evlərinin bərpası və inşası işində fəallıq nümayiş etdirib. Azərbaycanın birinci xanımının bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Heydər Əliyev Fondu layihə çərçivəsində Mərdəkan qəsəbəsindəki XVI əsrə aid "Pir Həsən" ziyarətgahında, Binə qəsəbəsindəki "Möhsün Səlim" və "İmam Rza", Gəncədəki "Həzrəti Zeynəb", Buzovna qəsəbəsindəki "Cümə" və s. məscidlərdə əsaslı təmir və bərpa işləri aparılıb, o cümlədən yeni məscidlər istifadəyə verilib. Eyni zamanda, layihə çərçivəsində Bakıdakı Pravoslav kilsəsində təmir-bərpa işləri aparılıb, yəhudi uşaqları üçün təhsil kompleksi istifadəyə verilib və s.

Ölkəmizdə dini etiqad azadlığı, əsrlərdən bəri xalq arasında mövcud olan dini dözümlülük və multikulturalizm ənənəsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu baxımdan Azərbaycan Respublikasının Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət Müşavirinin Xidmətinin, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin və Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun yaradılması dövlət başçısının azərbaycançılıq ideologiyasının inkişafını, milli-mənəvi dəyərlərin qorunmasını, dözümlülük siyasətimizin təbliğini daim diqqət mərkəzində saxladığının göstəricisidir. Bu işlərin ən zirvə nöqtəsi və ölkədəki müxtəlif mədəniyyətlər, dinlər, məzhəblər arasındakı dözümlülük ənənəsinə dövlətin verdiyi dəstək 2016-cı ilin ölkədə "Multikulturalizm ili" elan edilməsi ilə bağlı Prezident İlham Əliyevin imzaladığı Sərəncam idi. Bu Sərəncamdan irəli gələrək görülən işlər onu deməyə əsas verir ki, Azərbaycan xalqı dünyagörüşünə, intellektual səviyyəsinə, bütövlükdə mentalitetinə görə həm tolerant, həm də multikultural xalqdır. Əslində, multikulturalizm termini bu gün istifadə edilsə də, Azərbaycan cəmiyyətinin tarixən multikultural olması faktdır. Ölkəmiz əsrlər boyu müxtəlif dinlərin, xalqların, etnosların birliyini təcəssüm edib. Bu baxımdan da bu gün Azərbaycanın multikultural dəyərləri dünyaya bir nümunə kimi göstərilməkdədir. Hazırda Azərbaycanda multikulturalizm ənənələrinin inkişafı və möhkəmlənməsi üçün bütün zəruri şərait var və bundan istifadə edərək öz dəyərlərimizin təbliği istiqamətində var gücümüzlə çalışmalıyıq. Prezident İlham Əliyev bu yaxınlarda ölkəmizdə keçirilmiş V Beynəlxalq Humanitar Forumun rəsmi açılış mərasimində dövlətimizin multikulturalizmə verdiyi əhəmiyyəti belə ifadə etmişdir: "Bizim tariximiz multikulturalizm əsasında qurulubdur. ...İctimai-siyasi quruluşdan asılı olmayaraq Azərbaycan bütün dövrlərdə sülh, əməkdaşlıq, qarşılıqlı anlaşma məkanı olmuşdur və biz bu ənənələri yaşadırıq. Bu gün biz müstəqil dövlət kimi belə tədbirlərin keçirilməsi ilə multikulturalizmin inkişafına öz töhfəmizi veririk və Azərbaycanda aparılan siyasət bu müsbət meyilləri gündəlik həyatda gücləndirir".

Artıq Azərbaycan dünyada multikultural və tolerant məkan olaraq mədəniyyətlərin, dinlərin müxtəlifliyini yaşadan və inkişaf etdirən unikal ölkəyə çevrilib. Ölkəmizdə irqindən, dinindən və milli mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquqları qanunla qorunur. Əksər ölkələr üçün örnək olan multikulturalizm və dini tolerantlıq modeli müxtəlif inanc və mədəniyyətlərə sahib Azərbaycan vətəndaşlarının həyat tərzinə çevrilib. Ölkəmizdəki mövcud multikultural və dini tolerantlıq ənənəsinin yüksək səviyyədə olduğunu hələ 2001-ci ildə Bakıda Heydər Əliyevə müqəddəs Moskva knyazı "Daniel" ordenini təqdim edərkən Moskva və bütün Rusiyanın Patriarxı II Aleksi belə ifadə etmişdi: "Ölkənizdəki tolerantlıq və dini dözümlülük başqa dövlətlər üçün nümunədir". 2002-ci ildə Roma Papası mərhum II İohann Pavelin və bu günlərdə Papa Fransiskin ölkəmizə səfəri Azərbaycanın dinlərarası dialoqa, multikulturalizmə və tolerantlığa verdiyi töhfənin bariz nümunəsidir.

Eyni zamanda, artıq Azərbaycan dünyada dialoqun təşviqi və inkişafı istiqamətində mühüm rol oynamaqdadır. Bu gün həm Avropa Şurasına, həm də ISESCO-ya yeganə müsəlman ölkəsi kimi üzv olan Azərbaycan istər müsəlman, istərsə də Qərb ölkələri arasında möhkəm dostluq və əməkdaşlıq münasibətləri qurmuşdur. Son illər mədəniyyətlərarası və sivilizasiyalararası dialoq istiqamətində keçirilmiş beynəlxalq tədbirlərin coğrafiyasına nəzər salsaq, bu sahədə təşəbbüslərin böyük əksəriyyətinin beynəlxalq aləmdə müxtəlif mədəniyyətlərin qovuşduğu məkan kimi tanınan Azərbaycan tərəfdən gəldiyinin şahidi olarıq. Buna ən gözəl nümunə Ümummilli Lider Heydər Əliyev tərəfindən ölkədə əsası qoyulan "16 Noyabr - Beynəlxalq Tolerantlıq Günü"nün hər il qeyd olunması, ISESCO-nun 2009-cu ildə Bakı şəhərini İslam Mədəniyyətinin Paytaxtı elan etməsi, habelə mədəniyyətlərarası dialoqla bağlı paytaxtımızda müxtəlif tədbirlərin - 2006-cı ildə "İslamda dözümlülük" mövzusunda beynəlxalq konfransın, 2011-ci ildən başlayaraq hər iki ildən bir Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun, 2012-ci ildə İqtisadi Əməkdaşlıq Təşkilatının XII Zirvə Toplantısının, "Dövlət və din: dəyişən dünyada tolerantlığın gücləndirilməsi" I Beynəlxalq Bakı Forumunun, beş beynəlxalq humanitar forumun, 2016-cı ilin aprelində Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun və digər mötəbər tədbirlərin keçirilməsidir.

Bu cür tədbirlərin keçirilməsində məqsəd Şərqlə Qərb arasında tarixi körpü rolunu oynayan Azərbaycanın İslam dünyası ilə Qərb sivilizasiyası, eləcə də digər mədəniyyətləri təmsil edən xalqlar arasında dialoqun və etimadın möhkəmləndirilməsində mühüm rolu nəzərə alınmaqla, müxtəlif mədəniyyətlər arasında əməkdaşlıq üçün qlobal platformanı təsis etmək, xalqımızın dözümlülük mədəniyyətini, tarixi ənənələrini beynəlxalq aləmə tanıtmaq, eyni zamanda bu gün dünyada qlobal problemə çevrilmiş dini radikalizm və zorakı ekstremizmin kökünün kəsilməsi istiqamətində birgə həll yolları axtarıb tapmaqdır.

Dövlətimiz milli-mənəvi dəyərlərin qorunması və təbliği istiqamətində də mühüm işlər görür. Ölkə rəhbəri bütün sahələrdə olduğu kimi, dini, milli-mənəvi dəyərlərin qorunması sahəsində də ardıcıl siyasət həyata keçirir. Prezident cənab İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncam bu nöqteyi-nəzərdən çox önəmlidir. Sərəncama əsasən, dini icmalara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə 2,5 milyon manat vəsait ayrılaraq İslam və qeyri-islam dini icmaları tərəfindən təqdim edilən layihələr, yüzlərlə tədbir həyata keçirilmişdir. Şübhəsiz ki, belə tədbirlərdə cəmiyyətin dini məlumatlarının artırılması, dini maarifləndirmə və milli-mənəvi dəyərlərin düzgün təbliği, xüsusilə gənclərə dinin olduğu kimi izah edilməsi xurafat və radikalizmlə mübarizədə öz müsbət təsirini göstərir. Bütün bunlarla yanaşı, dövlətin din siyasətini həyata keçirən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi milli-mənəvi və ənənəvi dini dəyərlərimizi cəmiyyətə düzgün şəkildə çatdırmaq məqsədilə mütəmadi maarifləndirici tədbirlər həyata keçirir, bu sahədə müxtəlif nəşrlər çap edtirir. Təbii ki, dini maarifləndirmə sahəsində fəaliyyəti təkcə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi həyata keçirmir, bununla bağlı Qafqaz Müsəlmanları İdarəsi tərəfindən geniş işlər görülməkdədir. QMİ məzhəblərarası qarşıdurmanın baş verməməsi üçün bütün səyini ortaya qoyur. İslam dünyasında Qafqaz Müsəlmanları İdarəsi yeganə dini təşkilatdır ki, onun rəhbəri Şeyx əhli-şiə, müfti olan birinci müavini əhli-sünnədir. Eyni zamanda, Şeyxülislamın müavinlərindən biri qadındır və bu, dünyada yeganə nümunələrdən sayıla bilər. Bütün bunlar Azərbaycanın tolerant və multikultural dəyərlərinin nümunələrindəndir.

İstər keçmiş, istərsə də müasir dövrdə yaşananlar göstərir ki, hər bir cəmiyyətdə, hər bir dövlətdə sabitliyin əsas sütunlarından biri də multikultural və tolerant dəyərlərin qorunması, inkişaf etdirilməsidir. Son illər bütün dünyada dini-milli, sosial-iqtisadi zəmində baş verən münaqişələrin, vətəndaş müharibələrinin fonunda ölkəmizdə müşahidə olunan sabitlik həm də onun sübutudur ki, Azərbaycan bir çox ölkələrin sahib olmaq istədiyi, ancaq əldə etməkdə çətinliklər və uğursuzluqlar yaşadığı ən ali dəyərlərin - tolerant və multikultural ənənələrin beşiyidir, bu sahədə onun öz təcrübəsi, bu təcrübəni qoruyub saxlayan, gələcək nəsillərə ötürən dövlət-din modeli var. O model ki, indi dünyanın bir çox ölkələri tərəfindən tədqiq edilir, öyrənilir və tətbiqinin əhəmiyyəti hər kürsüdə, hər görüşdə vurğulanır. O model ki, memarı Ulu Öndər, müasir dövrlə uzlaşdırıb təkmilləşdirəni Prezident İlham Əliyevdir.

# Ali təhsil müəssisələrində "Fitnə" sənədli filmi nümayiş olunub



**Noyabrın 18-də Azərbaycan Dövlət İqtisad Universitetində (ADİU) Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sifarişi ilə hazırlanan, dini ekstremizm və radikalizmin fəsadlarından bəhs edən "Fitnə" sənədli filmi nümayiş olunub.**

ADİU-nun rektoru, professor Ədalət Muradov ölkədə dövlət-din münasibətlərinin inkişafı üçün hər cür şəraitin yaradıldığını, Azərbaycanın tolerantlıq mərkəzi kimi tanındığını bildirərək, ölkəmizdə dövlət-din münasibətlərinin əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu diqqətə çatdırıb. Rektor universitetdə Prezident cənab İlham Əliyevin 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi ilə bağlı Sərəncamından irəli gələn vəzifələrin icrası, həmçinin Azərbaycan xalqının zəngin multikultural və tolerantlıq ənənələrinin təbliği, eyni zamanda dini radikalizm və ekstremizmlə mübarizə məqsədilə silsilə tədbirlərin həyata keçirildiyini qeyd edib. "Fitnə" filminin nümayişinin də gənclərin maarifləndirilməsi, milli-mənəvi dəyərlərimizə bağlılığının gücləndirilməsi və təbliği baxımından əhəmiyyətli olduğunu bildirib.

DQİDK-nın sədri Mübariz Qurbanlının sözlərinə görə, gəncləri dini radikal qrupların təsirindən qorumaq üçün təbliğat vasitələrindən biri də filmlərdir. O qeyd edib ki, bununla yanaşı dini radikalizmlə mübarizə çərçivəsində respublikanın bütün bölgələrində çoxsaylı seminarlar, görüşlər keçirilir, həmçinin müxtəlif kitab və digər çap materialları nəşr edilərək yayılır.

Komitə sədri bu sahədə gənclərə öz tövsiyələrini verərək, onların ekstremist təmayüllü dini cərəyanlara



qoşulmaması üçün mili-mənəvi dəyərlərə, dövlətinə bağlı olmasının önəmini vurğulayıb.

Tədbir film ətrafında müzakirələrlə davam edib. Sonda rektor Ə.Muradov N.Bədəlova ADİU-da "Fitnə" filminin uğurlu təqdimatına görə diplom təqdim edib.

**Həmin gün Bakı Ali Neft Məktəbində (BANM) "Beynəlxalq Tolerantlıq günü" ilə əlaqədar tədbirlər çərçivəsində Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının BANM-in professor-müəllim heyəti və tələbələri ilə görüşü keçirilib.**

Tədbirdə DQİDK-nın sədr müavini Gündüz İsmayılov, Komitənin Bakı şəhəri üzrə şöbəsinin müdiri Anar Kazımov, o cümlədən komitənin digər əməkdaşları, "Fitnə" filminin ssenari müəllifi Nadir Bədəlov, BANM-in professor-müəllim heyəti və tələbələri iştirak ediblər.

Tədbirdən öncə dini radikalizmə qarşı mübarizədən bəhs edən "Fitnə" sənədli filmi nümayiş olunub.

BANM-in rektoru Elmar Qasımov gənclərin maarifləndirilməsi, milli-mənəvi dəyərlərimizin, ölkəmizdə mövcud tolerant mühitin qorunması və təbliği, dini radikalizm meyllərinin qarşısının alınması baxımından bu kimi ekran əsərlərinin mühüm əhəmiyyət daşıdığını bildirib.

DQİDK-nın sədri M.Qurbanlı çıxış edərək ölkədəki dini durum, dini icmaların fəaliyyəti, dövlət-din münasibətləri barədə məlumat verib. Komitə sədri Azərbaycan dövlətinin tolerantlıq siyasəti barədə danışaraq gəncləri radikal dini qrupların təsirindən qorumağın vacibliyini bildirib.

Daha sonra sual-cavab və müzakirələr olub.

Tədbirin sonunda rektor Elmar Qasımov Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya "Fəxri qonaq" diplomunu təqdim edib.

**Noyabrın 22-də Azərbaycan Tibb Universitetində (ATU) DQİDK-nın sifarişi ilə hazırlanan "Fitnə" sənədli filmi nümayiş olunub.**

ATU-nun rektoru, professor Gəray Gəraybəyli terrorizmin



dünyada aktual problemlərdən birinə çevrildiyini bildirib.

Rektor müasir dövrdə daha çox gənclərin dini ekstremizmə cəlb olunduğunu, onların müxtəlif vədlərlə aldadılıb terrorçuluğa çəkildiyini söyləyib. Professor G.Gəraybəyli "Fitnə" filminin nümayişinin gənclərin maarifləndirilməsi, milli-mənəvi dəyərlərimizə bağlılığının gücləndirilməsi və təbliği baxımından əhəmiyyətli olduğunu bildirib.

DQİDK-nın sədri Mübariz Qurbanlı bildirib ki, bu gün dünyada İslam və digər dinlərdən başqa məqsədlər üçün istifadə edən radikal qüvvələr var. Bu radikal qüvvələr xüsusilə gəncləri öz sıralarına cəlb etməyə çalışırlar. Bu cür təbliğatların qarşısının alınmasında maarifləndirmə tədbirlərinin vacibliyini qeyd edən Komitə sədri bu işdə maarifləndirici sənədli filmlərin də təsirli olacağını vurğulayıb.

Tədbir film ətrafında müzakirələrlə davam edib.

**Noyabrın 30-da Bakı Dövlət Universitetində (BDU) "Dini ekstremizm və onun fəsadları" mövzusunda tədbir keçirilib.**

Tədbirin əvvəlində DQİDK-nın sifarişi ilə çəkilmiş "Fitnə" sənədli filmi nümayiş edilib. Sonra rektor, akademik Abel Məhərrəmov tədbiri giriş sözü ilə açaraq bildirib ki, Prezident İlham Əliyev tərəfindən elan edilmiş "Multikulturalizm ili" çərçivəsində ölkədə böyük işlər görülür, çoxşaxəli addımlar atılır. Bu sahədə ən önəmli məsələlərdən biri gənclər arasında düzgün maarifləndirmə işinin aparılmasıdır.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı isə bildirib ki, Azərbaycanda multikultural mühitin qorunması və inkişafı yönündə ardıcıl, məqsədyönlü addımların atılması, xüsusilə Prezident İlham Əliyevin multikulturalizmi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevirməsi Azərbaycan gerçəkliklərinin genişmiqyaslı ifadəsinin daha intensiv xarakter alması baxımından olduqca əhəmiyyətlidir.

Radikalizmin qarşısının alınmasında maarifləndirmə tədbirlərinin vacibliyini qeyd edən M.Qurbanlı Dövlət Komitəsinin sifarişi ilə hazırlanan və radikalizmlə mübarizənin dini, psixoloji, hüquqi, siyasi və mənəvi tərəflərinin işıqlandırıldığı "Fitnə" filminin də radikal qruplara qoşulanların sayının azalmasına təsirini göstərəcəyini vurğulayıb.

Tədbir BDU-nun İlahiyyat fakültəsinin dekanı, Qafqaz Müsəlmanları İdarəsi Elmi-Dini Şurasının sədri, akademik Vasim Məmmədəliyevin çıxışı ilə başa çatıb.



# Dövlət Komitəsinin sədri Kürdəmirdə vətəndaşların müraciətlərini dinləyib



**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı noyabrın 23-də Kürdəmir şəhərindəki Heydər Əliyev Mərkəzində Kürdəmir və Zərdab rayonlarından olan vətəndaşları qəbul edib.**

Qəbuldan əvvəl Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Qəbulda 18 vətəndaşın müraciətinə baxılıb. Müraciətlər, əsasən, dini icmaların dövlət qeydiyyatı, məscidlərin təmiri, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini ədəbiyyatla təmin olunma və sair məsələlərlə bağlı olub.

Vətəndaşlar Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı tərəfindən diqqətlə dinlənilib. Bir çox müraciətlər yerindəcə həll olunub. Araşdırılmasına ehtiyac olan məsələlər isə qeydiyyata alınıb. Komitənin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti orqanlara çatdırılmaq üçün nəzarətə götürülüb.

Qəbul üçün yaradılan şəraitdən razılıqlarını ifadə edən vətəndaşlar bölgələrdə bu cür qəbulların keçirilməsinin təşəbbüskarı olan Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# "Vandalizm" sənədli filminin təqdimatı keçirilib



**Noyabrın 24-də Nizami Kino Mərkəzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi və "Trend" BİA-nın dəstəyi ilə çəkilmiş "Vandalizm" sənədli filminin təqdimatı keçirilib. Tədbirdə rəsmi şəxslər, Milli Məclisin deputatları, Bakıda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri iştirak ediblər.**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bu filmin xalqımızın maddi-mənəvi irsinə, o cümlədən tarixi və dini abidələrimizə qarşı Ermənistan tərəfindən həyata keçirilən vandalizm aktlarından bəhs etdiyini bildirib.

Komitə sədri deyib ki, Azərbaycan torpaqlarının işğalı, ermənilərin vandalizmi, mülki əhalinin məhv edilməsi barədə çoxlu kitablar yazılıb, filmlər çəkilib. Bu film işğal olunmuş ərazilərimizdəki abidələr haqqındadır. Filmdə Azərbaycanın maddi və mənəvi irsinə qarşı Ermənistanın təcavüzkarlığı konkret faktlar əsasında göstərilib.

Milli Məclis sədrinin müavini Bahar Muradova deyib ki, Ermənistan əvvəlcə Azərbaycanın işğal olunmuş ərazilərində azərbaycanlılara qarşı vandalizm əməlləri törədib. Vandalizmin sonrakı hədəfi isə Azərbaycanın tarixi-mədəni abidələri olub. Azərbaycan bu vandalizmin dünya ictimaiyyətinə çatdırılması üçün beynəlxalq təşkilatlarda iş aparıb. Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərindən ATƏT-in faktaraşdırıcı missiyasının işğal olunmuş bölgələrə səfər etməsini tələb edib və buna nail olub. ATƏT-in faktaraşdırıcı missiyası işğal olunmuş ərazilərə iki dəfə səfər edib. Bu səfərlər zamanı işğal olunmuş bölgələrdə vandalizmə yol verildiyi, erməni əhalinin məskunlaşdırılmağa çalışıldığı, iqtisadi fəaliyyətlə məşğul olunduğu üzə çıxıb. Bu gün nümayiş etdirilən filmdə də faktaraşdırıcı missiyanın üzə çıxardığı faktlar göstəriləcək: "Mən bu tədbirdə iştirak edən xarici ölkələrin səfirlərindən bu faktları öz ölkələrinə çatdırmalarını istəyirəm".

Milli Məclisin mədəniyyət komitəsinin sədri Rafael Hüseynov ermənilərin Zəngilanda 500-700 yaşı olan çinar ağaclarını da məhv etdiyini diqqətə çatdıraraq deyib: "O çinarlar təkcə Azərbaycanın deyil, dünyanın sərvətləridir. Füzuli rayonunda qədim insan məskəni olan Azıx mağarası da təkcə Azərbaycana məxsus deyil. Bütün bunlar həm də dünyanın tarixi-mədəni sərvətləridir. Ona görə də dünya birliyi işğal olunmuş Azərbaycan ərazilərində mədəni-tarixi abidələrin dağıdılmasının qarşısının alınmasına çalışmalıdır".

Tədbirdə "Trend" BİA-nın baş direktorunun müavini Arzu Nağıyev, Bakı şəhəri Dağ yəhudiləri İcmasının sədri Milix Yevdayev, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının təmsilçisi Dionisi ata da çıxış ediblər.

Sonra film nümayiş etdirilib.

Qeyd edək ki, "Vandalizm" sənədli filminin çəkilməsində məqsəd Azərbaycan əleyhinə işğalçılıq siyasəti yeridən, Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirən Ermənistanın bu istiqamətdə əməllərini faktlarla ifşa etmək, beynəlxalq ictimaiyyətin diqqətini bu məsələyə yönəltməkdir. Filmdə tarixi mənbələrə və faktlara istinad edilib, beynəlxalq hüquq, politologiya sahəsində tanınmış mütəxəssislərin və din xadimlərinin fikirlərinə yer verilib.

# İslam dininin əsl mahiyyəti və dəyərləri gənc nəslə olduğu kimi çatdırılmalıdır



Noyabrın 23-də Yasamal Rayon İcra Hakimiyyətində "İslam dini – tolerantlıq və dözümlülük nümunəsi" mövzusunda konfrans keçirilib. Konfrans Yasamal rayon Gənclər və İdman İdarəsi tərəfindən təşkil olunub.

Rayon gənclər və idman idarəsinin rəisi İlham Səfərov "Multikulturalizm ili" çərçivəsində idarə tərəfindən görülmüş işlər barədə məlumat verib. O bildirib ki, Azərbaycan mədəniyyətlərarası dialoqun inkişafına, sivilizasiyalar arasında münasibətlərin tənzimlənməsinə yönəlmiş mühüm layihələrin icrası, forumların keçirilməsi sahəsində zəngin təcrübəyə malikdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov "Dövlət-din münasibətləri" adlı məruzəsində İslam dininin sülh və əmin-amanlıq dini olduğunu deyib. Diqqətə çatdırılıb ki, İslam dininin ortaya qoyduğu ümumi prinsiplər insanları qardaşlığa, birliyə, bərabərliyə səsləyir. Məhz buna görə İslam dininə maarifçilik aspektindən yanaşsaq, müasir dövrümüzdə meydana gələn bir çox problemlərin kökündən həllinin şahidi ola bilərik. İslam dinindən siyasi və iqtisadi maraqlar naminə alət kimi istifadə edilməsi cəhdləri yolverilməzdir.

Komitə sədrinin müavini müəyyən qüvvələrin İslam dünyasının, o cümlədən Azərbaycanın inkişafını həzm edə bilmədiklərini diqqətə çatdırıb. O əlavə edib ki, bu qüvvələr İslam dininin həqiqi prinsiplərinin multikultural dəyərlərin inkişafına, müasir dövrdə müxtəlif xalq və millətlərin, etnik və dini qrupların bir yerdə sülh şəraitində yaşamasına münbit şərait yaratdığını dərk edirlər. S.Heydərov Azərbaycan dövlətinin multikulturalizmi və dini tolerantlığı dövlət siyasətinə çevirməklə bu şəraiti ölkəmizdə nümunəvi şəkildə formalaşdırmağı bacardığını vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullah "İslamda sülh və tolerantlıq" adlı məruzəsində qeyd edib ki, Azərbaycanda çoxsaylı etnosların və müxtəlif dinlərin nümayəndələrinin birlikdə yaşamasına baxmayaraq ölkədə heç vaxt dini qarşıdurma baş verməyib. Dini dözümlülüyü, tolerantlığı daim dəstəkləyən Ümummilli Lider Heydər Əliyev gənclərimizin bu ruhda tərbiyə olunmasını tövsiyə edib.

"Bakı 2017 IV İslam Həmrəyliyi Oyunları İslam həmrəyliyinin möhkəmlənməsinin əsası kimi" adlı məruzə ilə çıxış edən Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov Azərbaycanın bu gün Olimpiya hərəkatında nümunəvi ölkə olaraq tanındığını bildirib. Qeyd olunub ki, gələn il keçiriləcək İslam Həmrəyliyi Oyunlarında 50-dən çox İslam ölkəsinin nümayəndələri, eyni zamanda Beynəlxalq və Avropa Olimpiya komitələrinin rəsmiləri Azərbaycana gələcək.

Yasamal Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mehdiyevin "Gənclərə tövsiyə" adlı məruzəsində Azərbaycanın indi bütün dünyada həm də tolerantlıq örnəyi kimi tanındığı qeyd olunub. Bildirilib ki, Ulu Öndər Heydər Əliyevin ölkəmizdə tolerantlığın qorunub saxlanılması istiqamətində həyata keçirdiyi tədbirlər Azərbaycanı milli və mədəni dəyərlərin qovuşduğu məkana çevirib. Azərbaycanda tolerant mühitin hazırkı səviyyəyə çatması Prezident İlham Əliyevin bu istiqamətdə yürütdüyü uğurlu siyasətin nəticəsidir.

Sonra Dövlət Təhlükəsizliyi Xidmətinin Yasamal Rayon İdarəsinin rəisi İlham Qasımzadənin "Dövlət-din münasibətləri milli təhlükəsizliyin tərkibi kimi", Yasamal rayon prokuroru Rasim Hacıyevin "Dövlət-din münasibətlərinin tənzimlənməsinə dair qanunvericilik bazasının əsasları" adlı məruzələri dinlənilib.

Konfransda rayon ərazisində fəaliyyət göstərən ali və orta ixtisas məktəblərinin tələbələri, orta ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri, idarə, müəssisə və təşkilatlarda çalışan gənclər və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.



# Horadizdə "Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik" mövzusunda regional konfrans keçirilib

**Noyabrın 29-da Horadiz şəhərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Füzuli Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik" mövzusunda regional konfrans keçirilib.**

Konfransda DQİDK-nın, Füzuli Rayon İcra Hakimiyyətinin və QMİ-nin rəsmiləri, dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar, eləcə də ictimaiyyət nümayəndələri, ziyalılar iştirak ediblər.

Füzuli Rayon İcra Hakimiyyəti başçısı Aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Qabil Əliyev konfransı açaraq ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsindən, "Multikulturalizm ili" çərçivəsində bu sahədə reallaşdırılan layihələrdən danışıb.

DQİDK sədrinin müavini Gündüz İsmayılov dövlətimizin din siyasətinin təməlinin Ümummilli Lider Heydər Əliyev tərəfindən multikultural cəmiyyətin bütün incəliklərinin hesaba alınması ilə qoyulduğunu qeyd edərək, bu ənənənin hazırda yüksək səviyyədə davam etdirildiyini bildirib. Dövlət Komitəsi sədrinin müavini ölkəmizin zəngin multikultural mühitinə əsas təhlükə törədən potensial və real təhdidlərə diqqət çəkərək, dini radikalizmin doğura biləcəyi mənfi nəticələrdən bəhs edib. Bildirib ki, məzhəb müxtəlifliyi şəraitində multikultural cəmiyyətlərdə, xüsusilə İslam dininə mənsub toplumlarda ənənəvi İslamın zəifləməsi fonunda xarici təsirlərin güclənməsi prosesi gedir. Dini radikalizmin güclənməsi dinin siyasiləşdirilməsinə, tolerantlığın zəifləməsi isə məzhəbçiliyin güclənməsinə, dini kimliyin milli kimliyə qarşı qoyulmasına, cəmiyyətdə qütbləşmənin və sosial təbəqələşmənin yaranmasına aparıb çıxarır.

Tədbirin ikinci hissəsi diskussiya şəraitində keçib, milli dəyərlərimizin qorunması, nümunəvi Azərbaycan gəncinin əsas xüsusiyyətləri, qloballaşma şəraitində müasirləşmənin milli özünəməxsusluğun itməsi hesabına baş verməməsi üçün görülən işlər müzakirə edilib.

# "Dini radikalizmlə mübarizədə dini icmaların fəaliyyətinin təşkili" mövzusunda tədbirlər keçirilib



## Ucarda

Noyabrın 4-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Ucar Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Ucar şəhər Heydər Əliyev Mərkəzində "Dini radikalizmlə mübarizədə dini icmaların fəaliyyətinin təşkili" mövzusunda seminar-müşavirə keçirilib.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin müdiri Əzim Rəfiyev, Ucar Rayon İcra Hakimiyyəti başçısının müavinləri Əliş Cəbrayılov, Şəhla Abdullayeva, Rayon İH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Məhəmməd Bayramov, Dövlət Təhlükəsizliyi Xidmətinin Göyçay rayon şöbəsinin rəisi Araz Əhmədov, dini icma sədrləri, din xadimləri, və ziyalılar iştirak ediblər.

Tədbirdə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərinə qayıdışının sürətləndiyini qeyd edib. Səyyad Salahlı bu istiqamətdə Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətlərini vurğulayaraq, Azərbaycan dövlətinin milli-mənəvi dəyərlərimizin inkişafı, dini radikalizm və ekstremizmin fəsadları ilə mübarizə metodları istiqamətində həyata keçirdiyi işlərdən danışıb.



Daha sonra Ucar Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Əliş Cəbrayılov və Dövlət Təhlükəsizliyi Xidmətinin Göyçay rayon şöbəsinin rəisi Araz Əhmədov məruzə ilə çıxış ediblər. Natiqlər ölkəmizdəki dini müstəvidə sabitlik və əmin-amanlığın bundan sonra da dövlətimiz üçün siyasi baxımdan prioritet məsələ olduğunu danışaraq, cəmiyyətimizin, xüsusilə, gənclərin radikal təsirlərdən qorunmasında vətəndaşlarımızın üzərinə böyük məsuliyyət düşdüyünü qeyd ediblər.

Tədbirdə, həmçinin Ucar şəhər "Cami" məscidinin axundu Elnur Rəhimov və Çiyni kənd "Hacı Ağamirzə" məscidi dini icmasının sədri və axundu Zaur Eyvazov mövzu ilə bağlı öz fikirlərini bildiriblər.

Sonda tədbir iştirakçılarına Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən çapına icazə verilmiş dini ədəbiyyatlar paylanıb.

## Lənkəranda

"Dini radikalizmlə mübarizədə dini icmaların fəaliyyətinin təşkili" mövzusunda növbəti tədbir noyabrın 14-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Lənkəran Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə şəhər Mədəniyyət Mərkəzində baş tutub.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Dadaşov, DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov, QMİ-nin bölgə üzrə qazısı Qəni Axundzadə, dini icma sədrləri, din xadimləri, ziyalılar və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Dadaşov konfransın əhəmiyyətindən danışıb. İ.Dadaşov mütəmadi olaraq keçirilən bu kimi maarifləndirici tədbirlərin gənclər arasında sağlam həyat tərzinin təbliği, zərərli vərdişlərin fəsadları haqqında tam təsəvvürün formalaşması baxımından əhəmiyyətli olduğunu vurğulayıb.

Daha sonra çıxış edən Komitə sədrinin birinci müavini Səyyad Salahlı milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında və inkişafında Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətlərindən danışıb. O, ölkəmizdə mövcud olan tolerant və multikultural dəyərlərdən, radikalizm və onun fəsadlarının aradan qaldırılması, radikalizmə qarşı mübarizədə maarifləndirici, profilaktik tədbirlərin görülməsinin vacibliyindən bəhs edib.

QMİ-nin bölgə üzrə qazısı Hacı Qəni Axundzadə dövlətimizin dinə və dindarlara qayğısından, ənənəvi dini dəyərlərin tanıdılmasından, bu dəyərlərin keçdiyi tarixi mərhələlərdən danışıb. Q.Axundzadə tarixən bölgədə mövcud olan dini adət-ənənədən söhbət açaraq, xarici dini təsirlərə məruz qalmamaq üçün dinin düzgün formada öyrənilməsinin vacibliyini vurğulayıb.



## Neftçalada

Bu qəbildən növbəti tədbir noyabrın 15-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Neftçala Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini radikalizmlə mübarizədə dini icmaların fəaliyyətinin təşkili" mövzusunda keçirilib. Seminar-müşavirədə dini icma rəhbərləri, dindarlar, ictimaiyyət nümayəndələri və gənclər iştirak ediblər.

Neftçala Rayon İcra Hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini Gültəkin Sadıqova tədbiri açaraq rayonda dini durumun sabit olduğunu bildirib, ənənəvi İslam dəyərlərinin daşıyıcılarının bir yerdə dinc yaşadığını, qaynayıb-qarışdığını, qohumluq əlaqələri qurduğunu qeyd edib.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı ölkəmizdə dövlət-din münasibətlərindən, milli-mənəvi və İslami dəyərlərin qorunması, təbliği sahəsində həyata keçirilən tədbirlərdən, dini radikalizmin mahiyyəti və onunla mübarizə yollarından danışıb.

Qeyd olunub ki, dünyada dini radikalizm meyillərinin güclənərək bəşəriyyət üçün ciddi təhlükəyə çevrildiyi bir vaxtda Azərbaycanda müxtəlif xalqlar qarşılıqlı hörmət, əmin-amanlıq şəraitində yaşayır, bir-birinin dininə, milli adət-ənənələrinə və digər fərqli xüsusiyyətlərinə daim saygı ilə yanaşırlar.

Tədbirdə, həmçinin dini cərəyanlar və onların fəaliyyət metodları haqqında da ətraflı məlumat verilib.

## Salyanda

"Dini radikalizmlə mübarizədə dini icmaların fəaliyyətinin təşkili" mövzusunda daha bir seminar-müşavirə isə noyabrın 16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Salyan Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilib.

Tədbirdə Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, Dövlət Komitəsinin Şirvan bölgəsi üzrə şöbəsinin müdiri Azər Sadıqov, Dövlət Təhlükəsizliyi Xidmətinin Salyan rayon şöbəsinin rəisi Dəyanət Quliyev, Qafqaz Müsəlmanları İdarəsinin bölgə üzrə səlahiyyətli nümayəndəsi Hüsni Həsənov, dini icma sədrləri və gənclər iştirak ediblər.

Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov tədbiri açaraq, rayonda dini durumun sabit olduğunu bildirib və konfransın əhəmiyyətini yüksək qiymətləndirib. S.Hətəmov qeyd edib ki, Azərbaycan xalqı hər zaman öz milli-mənəvi dəyərlərinə bağlıdır.

Daha sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı dini radikalizmi ortaya çıxaran səbəblər, bu səbəblərlə mübarizə yolları barədə geniş məlumat verib. S.Salahlı, eyni zamanda radikal və ənənəvi dini cərəyanlar arasındakı fərqli cəhətlərdən danışıb.

Tədbirlərin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.



# "Əsas hədəfimiz dini ekstremizmin fəsadlarıyla yanaşı, onun səbəblərini də ilkin mərhələdə aradan qaldırmaqdır..."

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov Moderator.az saytına dini durum barədə ətraflı müsahibə verib. Azərbaycanda qeyri-ənənəvi dini cərəyanlardan danışan sədr müavini bildirib ki, Konstitusiyanın 48-ci maddəsinə əsasən, hər kəsin vicdan azadlığı vardır. Yəni hər bir vətəndaş istədiyi dinə, cərəyana qulluq edə bilər. Mövcud qanunvericilik bazası da vətəndaşların bu sahədəki hüquqlarını tam şəkildə qoruyur. Dövlət Komitəsi tərəfindən də ölkədə fəaliyyət göstərən bütün dini icmalara və onların üzvlərinə bərabərhüquqlu münasibət göstərilir.*

*Sədr müavininin sözlərinə görə, Komitə tərəfindən aparılan monitorinqlər göstərir ki, istər xristian, istərsə də müsəlmanyönümlü qeyri-ənənəvi dini cərəyanların sıralarına əsasən ailədaxili problemlərlə üzləşən, cəmiyyətə adaptasiya olunmaqda çətinlik çəkən fərdlər qoşulurlar. Dolayısı ilə hər şey cəmiyyətin ən əsas özəyi olan ailədən başlayır. Əgər ailə sağlam və möhkəm bünövrə üzərində qurulubsa, bu ailənin hər hansı fərdini zərərli yola çəkmək mümkün deyildir.*



*Azərbaycanda islamyönümlü radikal qurumların mümkün fəaliyyəti, İŞİD-in paytaxt və bölgələrdə öz hücrələrini formalaşdırması ehtimalı və s. kimi mövzulara da toxunan S.Heydərov qeyd edib ki, bu gün Azərbaycanda hər hansı radikal dini qruplaşma yoxdur. Ötən illərdə, xüsusilə, xaricdən belə qruplaşmalar formalaşdırmağa cəhdlər olunsa da, istənilən yönümlü radikallığın vaxtında qarşısının alınması üçün daim lazımi işlər həyata keçirilir.*

*Müsahibəni ixtisarla diqqətinizə təqdim edirik.*

**- Səyavuş müəllim, 2014-cü ildə DQİDK yas mərasimlərində israfçılığın aradan qaldırılması ilə bağlı tövsiyə verdi. Bu, əksəriyyət tərəfindən müsbət qarşılandı. Amma bu gün, demək olar ki, yas məclislərinin inzibati qaydalarla tənzimləndiyi Naxçıvan MR istisna olmaqla, Bakıda, digər şəhər və bölgələrdə israfçılıq halları davam edir. Bu istiqamətdə hansısa yeni tədbirlər görülür, yoxsa?..**

- Ehsan məclisi hamının həyatında labüd şəkildə qarşılaşdığı bir məsələdir. Hər hansımızı qəflətən yaxalayan yas hadisəsi onsuz da bizi psixoloji baxımdan çətinliyə salır. Digər tərəfdən, yasa gələn qonaqları artıq qəbul olunmuş "adətlərə" uyğun qarşılamaq problemi yarananda vəziyyət daha da qəlizləşir. Odur ki, Komitəmiz tərəfindən qaldırılmış bu təşəbbüs ictimai zərurətdən yaranmış, cəmiyyətin istəyindən irəli gələrək atılmış bir addım oldu. Və hesab edirəm ki, bugünədək ehsan məclislərində israfçılığın qarşısının alınması üçün xeyli irəliləyişlər olub. Əslində, belə problemləri birdən-birə nizamlamaq çətin məsələdir. Bu barədə Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) müvafiq fətvası olub və dindarlar da öz tövsiyələrini veriblər. Şəriət qaydalarının nizamlanması QMİ tərəfindən həyata keçirildiyindən Komitəmiz əsasən tövsiyələrini veribdir. Bilirsiniz, həm də bu məsələdə məcburiyyət olmaz. Sadəcə, burada müəyyən zamana ehtiyac var. Əsas odur ki, ictimaiyyət bu təşəbbüsü müsbət qarşılayıb. Güman edirəm ki, proseslər getdikcə daha da müsbət məcrada davam edəcək...

**- Rusiyanın bir sıra regionlarında, eləcə də Avropanın bəzi ölkələrində İslam xüsusi formada tədris olunur. Bu günlərdə Finlandiyada da belə bir qərarın verilməsi haqqında xəbərlər yayıldı. Sizcə, Azərbaycanda da vətəndaşların vaxtında maariflənməsi və bununla da gələcəkdə hansısa radikal qruplaşmaların "tor"una düşməkdən sığorta olunması üçün təhsil ocaqlarında dinin ayrıca tədris olunması məqbul deyilmi?**

- Bu məsələ dəfələrlə gündəmə gəlib. Bizim də qənaətimiz belədir ki, insanların radikal dini qrupların "tor"una düşməsinin başlıca səbəblərindən biri də dini bilgilərinin olmaması və yaxud zəif olmasıdır. Bununla bağlı hazırda da müzakirələr gedir. Biz də istəyirik ki, vətəndaşlarımız məktəbli çağlarından dini biliklərə yiyələnsinlər. Bu gün orta məktəblərin müxtəlif siniflərində "Həyat bilgisi" adlı fənn çərçivəsində şagirdlərə İslam, eləcə də digər dinlər barəsində bilgilər verilir. Bir neçə ay öncə isə Komitəmiz həmin fənn proqramlarına dini mövzuların daha geniş formada daxil edilməsi ilə bağlı müvafiq qurumlara təkliflər təqdim edib. Məqsəd ondan ibarətdir ki, şagirdlərimiz müxtəlif dinlər haqqında daha dolğun məlumatlara malik olsunlar.

**- Təəssüf ki, valideynlərin xeyli hissəsi sovet dövründə təhsil aldığından, İslamın da, digər dinlərin də mahiyyətindən məlumatlı deyil. Odur ki, hər hansı bir dini qruplaşmaya qoşulan övladının yanlış yolda olduğunu vaxtında müəyyən edə bilmir. Bu baxımdan valideynlər üçün ayrıca maarifləndirici seminarlar keçirilməsi, hətta məlumatlandırıcı çap vəsaitləri hazırlanması mümkündürmü?**

- Son illər Azərbaycan cəmiyyətinin çox hissəsi artıq radikal vəhhabi qruplarının mahiyyətini anlamaqdadır. Bizim maarifləndirmə tədbirlərimiz də insanlara öz təsirini göstərir. Gənclərlə yanaşı, onların valideynləri də məlumatlanır. Hesab edirik ki, daha geniş formada kütləvi maarifləndirmə tədbirlərinə hələlik ehtiyac yoxdur. Son müşahidələr də onu göstərir ki, bu gün ölkəmizdə ötən illərə nisbətən istər radikal şiə, istər vəhhabi yönümlü cərəyanların zərərli təsirlərinə məruz qalan vətəndaşların sayı azalmaqdadır. Buna da bizim Komitənin maarifləndirmə və inzibati tədbirləri ilə yanaşı, digər dövlət qurumlarının keçirdiyi müvafiq tədbirlərin nəticəsində nail olunub. Əsas hədəfimiz dini ekstremizmin fəsadları ilə yanaşı, onun köklü səbəblərini də vaxtında müəyyən edərək ilkin mərhələdə aradan qaldırmaqdır...

**- Səyavuş müəllim, 2015-ci ildəki müsahibələrinizdən birində Azərbaycanda yeni milli-dini model formalaşdırılması təşəbbüsü ilə çıxış etmişdiniz. Vacib və maraqlı təşəbbüsdür. Amma bilirsiniz ki, İslamda bidət anlayışı var. Yəni dində olmayan şeyi qanun kimi dinə daxil etmək. Bu da dinimizdə böyük günahlardan biri sayılır. Və bu işə İslam dinindəki qanunlara təcavüz kimi baxılır. Ehtiyat etmirsiniz ki, daxildəki və xaricdəki radikal və ya mühafizəkar dini dairələr müsəlman ölkəsində yeni milli-dini model yaratmaq təşəbbüsünü "bidət cəhdi" kimi təqdim edərək bundan öz siyasi məqsədləri üçün yararlansınlar?**

- Bilirsiniz, Ulu Öndərin vurğuladığı kimi, dinimiz bizim milli-mənəvi sərvətimizdir. Və biz bu sərvətimizi qorumalıyıq. Bu məqsədlə dövlət-din münasibətlərinin formalaşdırılması da məhz həmin prinsiplərdən qaynaqlanır. Bir sıra müsəlman ölkələrində dövlət-din münasibətləri və dini ideologiyalar fərqlidir. Biz dünyəvi dövlətik. Biz digər ölkələrin dini ideologiyalarının ölkəmizə daxil olmasına imkan verməməliyik. Müstəqilliyimizin ilk illərindən belə cəhdlər davam etməkdədir. Hazırda bəzi ölkələrdə sünnilik, bəzilərində şiəlik, digərlərində şiəliyin, yaxud sünniliyin müxtəlif qolları üstünlük təşkil edir. Təsəvvür edin ki, biz bütün müsəlman ölkələrinin öz dini ideologiyalarını Azərbaycana ixrac etməsinə şərait yaradaq. Və ölkəmizdə həmin cərəyanlar arasında kimin daha çox Azərbaycan vətəndaşını öz təsiri altına salması uğrunda bir yarış getsin. O halda nə baş verəcəyi, hansı xaosun, təlatümlərin baş qaldıracağını göz önünə gətirin. Bəs bizim öz milli-mənəvi dəyərlərimiz, azərbaycançılığımız? Hər hansı xarici ölkədə dini təhsil alıb vətənə qayıdanların bəzilərinə diqqət etsək, onların davranışlarının, salam vermək tərzlərinin, geyimlərinin və bütövlükdə dünyagörüşlərinin dəyişdiyinin şahidi olarıq. Bəziləri hətta öz valideynlərinə kafir deməkdən də çəkinmirlər. Odur ki, normal dövlət bu proseslərin qarşısını almalıdır. Və biz milli-dini model dedikdə belə qeyri-ənənəvi, radikal təsirlərdən qorunma və dinindən, milliyyətindən asılı olmayaraq, vətəndaşların birgə dinc şəraitdə yaşaması mexanizmini nəzərdə tuturuq. Bu modelin formalaşması bizim qədim tariximizdən gəlir. Ölkəmizdə formalaşmış milli-mənəvi dəyərlər, xüsusilə tolerantlıq və multikultural ənənələr, dünyəvilik və azərbaycançılıq prinsipləri məhz bu modelin tərkib hissəsidir. Bütün bunlar özlüyündə bizim milli-dini modelimizi formalaşdırır. Bu gün də dünyadakı gerçək prosesləri müşahidə edəndə görürük ki, bəzi müsəlman ölkələrindəki hazırkı xaotik durumun, dini zəmində qarşıdurmaların, vətəndaş müharibələrinin əsas səbəbkarlarından biri İslam adı altında formalaşdırılmış qeyri-ənənəvi, radikal cərəyan və təriqətlərdir. Ona görə də biz yüz illər boyunca tarixin süzgəcindən süzülərək formalaşmış milli-mənəvi dəyərlərimizi, özünəməxsus dövlət-din münasibətlərini qoruyub saxlamağa borcluyuq. Və öncə də dediyim kimi, hər hansı bir dinə, yaxud cərəyana mənsubluğu qəbul edən zaman azərbaycanlı olduğumuzu unutmamalıyıq. Bu məsələlərə biz azərbaycançılıq konsepsiyasından, azərbaycançılıq fəlsəfəsindən yanaşmalıyıq. Qədimlərdən bu günədək İslam dəyərləri bizim milli dəyərlərimizə töhfə verdiyi kimi, qeyd olunan ənənələr, o cümlədən azərbaycançılığımız və vəhdətimiz də İslam dəyərlərinə töhfə verməkdədir. Bu gün dünya ölkələrində nümunə çəkilən azərbaycansayağı tolerantlıq, multikulturalizm kiminsə sifarişi ilə, bir gecədə yaranmayıb. Bu, bayaq dediyimiz kimi, tarixi ənənələrimizdən, milli xüsusiyyətlərimizdən qaynaqlanır. Milli-dini modelimiz də məhz mövcud dövlət-din münasibətlərimiz, vurğuladığım dəyərlərimiz üzərində formalaşmaqdadır.

Mən demirəm ki, Azərbaycanda yeni din yaradaq, yaxud Qurana əsaslanan klassik İslama hansısa yeniliklər gətirəcək təzə bir dini cərəyan formalaşdıraq. Biz deyirik ki, gəlin özümüzə baza kimi müqəddəs Qurani-Kərimi götürək. Bu kitabda sünni-şiə ayırımı yoxdur. Qurani-Kərim o dərəcədə ali, uca bir məqamdadır ki, bunu təsvir etməyə söz tapa bilmirəm. Bu Kitab başdan-ayağa yüksək əxlaq, mənəviyyat və elm mənbəyidir. Bir sıra xarici ölkələrin, o cümlədən Qərbin, Amerikanın dünya şöhrətli elm adamları Quranı diqqətlə dönə-dönə mütaliə edib araşdıraraq yeni-yeni kəşflər edirlər. Təəssüf ki, bir sıra müsəlman ölkələrində, o cümlədən Azərbaycanda bəzi dindarlar Allahın sonuncu Kitabının elmi, əxlaqi yöndəki proqramlarını kənarda qoyub onun ayələrini öz bildikləri kimi yozaraq insanları xurafata, radikallığa yönləndirir. Və bu minvalla dini siyasiləşdirməyə və müəyyən məqsədlər üçün vasitə, alət kimi istifadə etməyə çalışırlar. Biri qalxıb deyir ki, biz bütün mənalarda İslamın ilkin dövrünə qayıdış etməliyik. Onda gərək elmi-texniki baxımdan da 1400 il əvvələ qayıdaq. Yəni, internetdən, mobil telefondan, elektrik lampasından, avtomobildən, təyyarədən və s. istifadə etməyək. Əgər Yaradan məsləhət görməsəydi, insan bütün bunları əldə edə bilərdimi? Quran ayələrinə görə, Yerin altı da, üstü də Allaha məxsusdur. Biz canlılar da Ona məxsusuq. Ancaq digər canlılardan fərqli olaraq, Tanrı bizə şüur və ağıl bəxş edibdir. Bunu nə üçün verib? Düşünək, quraq, yaradaq, tikək, həyatımızın müxtəlif sahələrini inkişaf etdirək.

İslam qətiyyən inkişafın əleyhinə deyil. İslam başdan-ayağa inkişafdır, modernləşmədir. Odur ki, bütün müsəlman ölkələri öz dini ideologiyalarını sırf Quran əsasları üzərində qursa, İslam dünyasında daim inkişaf, tərəqqi və birlik olar.

Bir daha təkrar edirəm ki, bizim bütün fəaliyyətimizin hədəfi milli və islami dəyərlərimizin qorunmasına yönəlib. Kimsə gəlib göstərsin ki, bizim hansısa addımımız milli mənəviyyatımıza, dinimizə ləkə gətirib. Dövlət-din münasibətlərini qorumaqla biz həm dövlətimizin təhlükəsizliyini təmin edirik, həm də ölkəmizin sabitliyinə və inkişafına töhfə veririk. Eyni zamanda da dinimizi qorumuş oluruq. Bu istiqamətdə bütün cəmiyyət çalışmalıdır. Hazırkı dövrdə İslam dünyasında baş verən təhlükəli tendensiyaları, prosesləri nəzərə alaraq deyə bilərik ki, biz düz yoldayıq və dövlət-din münasibətlərimiz də nümunəvidir. Buna görə də mövcud modelimizi qorumalı, daha da möhkəmləndirməli və inkişaf etdirməliyik. Bununla da, bu sahədə milli təhlükəsizliyimizə yönələ biləcək mümkün təhdidlərin qarşısını vaxtında alarıq, o cümlədən dünyada dini zəmində baş qaldırmış qlobal xarakterli təhlükəsizlik problemlərinin həllinə böyük töhfə verərik.

# BDU-nun İlahiyyat fakültəsində “Multikulturalizm ili” çərçivəsində görüş

Noyabrın 28-də Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı ilin Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan edilməsi haqqında Sərəncamı ilə əlaqədar tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan fakültənin dekanı, akademik Vasim Məmmədəliyev İslamda multikultural ənənələrdən, Azərbaycan xalqının keçmişdən günümüzə qədər olan tarixindənki tolerantlıq nümunələrindən bəhs edib.

Sonra Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov çıxış edərək xalqımızın multikultural və tolerant dəyərləri haqqında fikirlərini tədbir iştirakçıları ilə bölüşüb.

Tədbir fakültənin müəllimləri Osman Aydınlı və Aqil Şirinovun çıxışları ilə davam edib.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.



## “Müasir Azərbaycan gənci milli-mənəvi dəyərlərinə və adət-ənənələrinə bağlıdır”



“Azərbaycanda dövlət gənclər siyasətinin ana xəttini gənclərimizin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında xalqımızın şanlı tarixinə, adət-ənənələrinə və mədəni irsinə hörmət ruhunda tərbiyəsi təşkil edir”.

Bu fikirləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Amil Cavadov SalamNews-a açıqlamasında bildirib.

O deyib ki, bu siyasətin formalaşması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır: “Əsası Ulu Öndərimiz tərəfindən qoyulmuş dövlət gənclər siyasəti bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Uğurlu siyasət Azərbaycan gəncliyinin inkişafına təkan verməklə onların ölkəmizin ictimai-siyasi, sosial-mədəni və digər sahələrdə fəallığını daha da artırır. Ölkəmizdə gənclər siyasəti ilə əlaqədar qəbul edilmiş Dövlət Proqramları Azərbaycan gəncliyinin malik olduğu yüksək potensialın üzə çıxarılması, onların intellektual, yaradıcı və idarəçilik qabiliyyətlərinin önə çəkilməsi, müasir cəmiyyətimizdə fəallıqlarının artırılması və gənclərin hərtərəfli inkişafının stimullaşdırılması baxımından çox böyük əhəmiyyətə malikdir”.

Amil Cavadov qeyd edib ki, bu gün gənclərin öz potensialını gerçəkləşdirməsi və peşəkar kadr kimi yetişdirilməsi üçün bütün imkanlar yaradılıb: “Son illərdə Azərbaycanda açılan yeni iş yerlərinə də daha çox gənclər cəlb olunub. İstər dövlət idarəçiliyində, istərsə də özəl sektorda gənclərin xidmətlərindən, potensialından geniş istifadə olunur.

Əminliklə demək olar ki, müasir Azərbaycan gənci milli-mənəvi dəyərlərinə və adət-ənənələrinə bağlıdır. Bildiyiniz kimi, Prezident İlham Əliyev tərəfindən 2016-cı il ölkəmizdə “Multikulturalizm ili” elan edilib. Azərbaycanın sahib olduğu tolerant dəyərlərin, həmçinin multikulturalizmin elmi əsaslarla öyrənilməsi və dünyada təbliği istiqamətində göstərilən konkret hədəflərə çatmaq üçün hər bir vətəndaşımızın, o cümlədən gənclərimizin üzərinə şərəfli vəzifə düşür.

Ölkəmizdə bu istiqamətdə görülən işlər içərisində üzvü olduğum Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. Belə ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Yeni Azərbaycan Partiyası Gənclər Birliyi “Multikulturalizm ili” çərçivəsində paytaxtda və bölgələrimizdə gənclərin iştirakı ilə birlikdə çoxsaylı maarifləndirmə tədbirləri keçirib. Tədbirlərdə dövlətin multikulturalizm və tolerantlıq siyasətinin həyata keçirilməsində, milli-mənəvi dəyərlərimizin qorunmasında və təşviqində, tolerantlıq ənənələrinin möhkəmləndirilməsində gənclərin fəal mövqeyinin çox böyük əhəmiyyəti olduğu xüsusilə qeyd olunub. Bu sahədə fəaliyyətimiz gələcəkdə də davam etdiriləcəkdir”.

**Noyabrın 10-da sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən brayl əlifbası ilə nəşr etdirilən “Quran hekayətləri” kitabının təqdimat mərasimi keçirilib.**



# Brayl əlifbası ilə nəşr edilmiş “Quran hekayətləri” kitabının təqdimatı

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev, Təhsil, Əmək və əhalinin sosial müdafiəsi nazirliklərinin nümayəndələri, Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin sədri Səmiyar Abdullayev, məktəbin müəllim və şagird heyəti, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər.

DQİDK sədrinin müavini Gündüz İsmayılov çıxış edərək Prezident İlham Əliyevin müvafiq Sərəncamına uyğun olaraq respublikada dini maarifləndirmə tədbirlərinin geniş miqyasda davam etdirildiyini bildirib. Dövlət Komitəsinin dini bilgilərin cəmiyyətə sağlam mənbələr əsasında çatdırılması məqsədilə bir sıra dini ədəbiyyatların nəşrini həyata keçirdiyini söyləyən sədr müavini bildirib ki, brayl əlifbası ilə nəşr edilmiş “Quran hekayətləri” kitabı möhtərəm Prezidentimiz İlham Əliyevin göstərişinə əsasən dini kitabların çapı üçün ayrılmış vəsait hesabına nəşr edilib. O, ötən il Azərbaycanda ilk dəfə brayl əlifbası ilə Qurani-Kərimin çap edildiyini xatırladaraq, bu təşəbbüsün həm dövlətin milli-mənəvi dəyərlərimizin təbliği işinə, həm də görmə qüsuru olan vətəndaşlarımıza göstərdiyi diqqətin təzahürü olduğunu söyləyib.

Gündüz İsmayılov deyib ki, AMEA-nın müxbir üzvü, Nəsimi adına Dilçilik İnstitutunun direktoru Möhsün Nağısoylunun brayl əlifbası ilə nəşr edilmiş “Quran hekayətləri” kitabı görmə qabiliyyəti məhdud və ya itirilmiş uşaqların milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunması üçün çox faydalı vəsaitdir: “Məqsədimiz dini radikalizmlə mübarizə aparmaqla yanaşı, milli-mənəvi, o cümlədən dini dəyərlərimizi böyüməkdə olan nəslə sağlam qaynaqlar vasitəsilə aşılamaqdır”. Maarifləndirmə tədbirlərinin əsasında “Qurani-Kərim”in düzgün təbliğ olunmasının dayandığını deyən Gündüz İsmayılov müqəddəs kitabımızın elmə, təhsilə verdiyi dəyərlərdən danışıb.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev bildirib ki, brayl əlifbası ilə çap edilən kitab dinimizin təbliği baxımından çox mühüm addımdır. O, nəşrin İslamın məhz cəmiyyətin görmə qüsuru olan üzvlərinə düzgün çatdırılması baxımından təqdirəlayiq hal olduğunu deyib.

Daha sonra Təhsil Nazirliyinin şöbə müdiri Həbib Kərimov, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliyinin əməkdaşı Tamara Mikayılova, Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin sədri Səmiyar Abdullayev çıxış edərək “Quran hekayətləri” kitabının gözdən əlil vətəndaşlarımız üçün çap edilməsini milli-mənəvi dəyərlərimizin təbliği, eləcə də görmə qüsuru olan şəxslərin təfəkkürünün formalaşması, mənəviyyatının inkişafı baxımından çox mühüm addım olduğunu deyiblər.

# Cəzaçəkmə müəssisələrində tədbirlər keçirilib



Noyabrın 30-da Ədliyyə Nazirliyinin Penitensiar Xidməti Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə cəzaçəkmə müəssisələrində maarifləndirici tədbirləri davam etdirir.

Növbəti tədbirlər “Multikultural cəmiyyətdə birgəyaşayış ənənələri” mövzusunda 5, 8 və 14 saylı cəzaçəkmə müəssisələrində keçirilib. Tədbirlərdə Penitensiar Xidmətin Tərbiyə işinin təşkili idarəsinin məsul əməkdaşları, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov və AMEA-nın Şərqşünaslıq İnstitutunun əməkdaşı, Bakı İslam Universitetinin müəllimi, ilahiyyat üzrə fəlsəfə doktoru Aslan Həbibov iştirak ediblər.

Natiqlər müstəqilliyimizin bərpasından sonra dövlət-din münasibətlərinin yüksək dinamikası, dövlətin dinə olan qayğısı, eləcə də multikultural və tolerant dəyərlərin dövlət siyasətinin prioritetinə çevrilməsi barədə məhkumlara məlumat verilib. Qeyd olunub ki, ölkəmizdə tarixən mövcud olan multikultural və tolerant dəyərləri qoruyub-saxlamaq və gələcək nəsillərə ötürmək hər kəsin borcudur.

Tədbirin sonunda çoxsaylı suallar cavablandırılıb və Dövlət Komitəsi tərəfindən nəşr olunan kitablar məhkumlara hədiyyə edilib.

# "Tolerantlıq örnəyi Azərbaycan: gənclərin gözü ilə" mövzusunda konfrans və sərgi

**Noyabrın 14-də 2016-cı ilin "Multikulturalizm ili" elan olunması və bununla bağlı ölkə Prezidenti tərəfindən təsdiq edilmiş "Tədbirlər Planı"na əsasən, 16 -noyabr Beynəlxalq Tolerantlıq Günü münasibətilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun birgə təşkilatçılığı ilə "Tolerantlıq örnəyi Azərbaycan: gənclərin gözü ilə" mövzusunda konfrans keçirilib.**



Konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Azad Məmmədov, Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun icraçı direktoru Oktay Səmədov, Milli Məclisin deputatı Şahin İsmayılov, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov, qeyri-hökumət və gənclər təşkilatlarının sədrləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Konfransdan öncə iştirakçılar gənc rəssamların tolerantlıq mövzusunda əsərlərindən ibarət sərgi ilə tanış olublar. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bildirib ki, bu il tolerantlıq mövzusunda rəsm əsərlərinin müsabiqəsi keçirilib. Dövlət Komitəsi həmin müsabiqəyə təqdim olunmuş əsərlərin ən yaxşılarından ibarət fotoalbom nəşr edib ki, bu gün həm də həmin fotoalbomun təqdimatıdır.

Sərgi ilə bağlı layihənin koordinatoru, gənc rəssam Dilarə Müzəffərli ətraflı məlumat verib. O qeyd edib ki, sərgidəki bəzi əsərlər indiyədək bir neçə beynəlxalq tədbirlər çərçivəsində nümayiş etdirilib və uğur qazanıb.

Sərgi ilə tanışlıqdan sonra Gündüz İsmayılov konfransı giriş sözü ilə açaraq xalqımızın tolerantlıq ənənələrindən, bu sahədə dövlət siyasətindən, eləcə də Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin xidmətlərindən danışıb. Tolerantlığı ölkəmizin həm də ideoloji, milli və ictimai təhlükəsizliyinin təminatı kimi qiymətləndirən sədr müavini onu Azərbaycan xalqının milli keyfiyyəti kimi xarakterizə edib.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Azad Məmmədov bildirib ki, ölkəmizin milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti onu çoxmillətli, çoxkonfessiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanına çevirib. Multikulturalizmin dünya miqyasında zaman keçdikcə aktuallıq qazandığını vurğulayan Azad Məmmədov bu amilin Azərbaycanda həm dövlət siyasəti, həm də həyat tərzi olduğunu bildirib.

Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun icraçı direktoru Oktay Səmədov Azərbaycanın tolerantlıq ənənələrindən bəhs edərək 16 noyabr - Beynəlxalq Tolerantlıq Günü münasibətilə həyata keçirilən maarifləndirici işlər barədə məlumat verib.

Milli Məclisin deputatı Şahin İsmayılov xalqımızın əsrlərdir müxtəlif etnik qrupların nümayəndələri ilə qarşılıqlı hörmət və tolerantlıq şəraitində yaşadığını, ölkəmizdə tolerantlıq mühitinin güclənməsi istiqamətində ciddi addımlar atıldığını diqqətə çatdırıb.

Daha sonra çıxış edən Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov tolerantlıq ənənələrinin Azərbaycan xalqının mənəviyyat və sülhsevərliyindən qaynaqlanmasından, tolerantlığın dövlət siyasətinin əsas tərkib hissəsini təşkil etməsindən danışıb.

Digər natiqlər də çıxışlarında xalqımızın tolerant və multikultural dəyərlərə verdiyi qiymətdən, bu sahədə dövlətin yürütdüyü siyasətdən və gənclər tərəfindən həyata keçirilən layihələrdən bəhs ediblər.

# "Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik"

## Gəncədə



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Gəncə Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə şəhərdə fəaliyyət göstərən ali məktəblərdə "Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik" mövzusunda konfranslar keçirilib.

Gəncə Dövlət Universitetində tədbiri giriş sözü ilə açan şəhər İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Həsən Məmmədov şəhərdə dini durumun sabit olduğunu bildirib və konfransı yüksək qiymətləndirib.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Gündüz İsmayılov qeyd edib ki, bu cür tədbirlərin keçirilməsində məqsəd tolerant və multikultural dəyərlərimizi gənclər arasında təbliğ etməkdir. Qeyd edib ki, Azərbaycanın tolerantlıq dəyərlərinə təhdid yaradan məsələləri müzakirə etmək də vacibdir. DQİDK-nın sədr müavini çıxışında dini ekstremizm və radikalizmin fəsadlarından da bəhs edib.

Universitetin prorektoru Gülsüm Fətəliyeva milli-mənəvi dəyərlərimizə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib.

Azərbaycan Aqrar və Texnologiya universitetlərində keçirilən konfranslarda Texnologiya Universitetinin rektoru Akif Süleymanov, Aqrar Universitetin prorektoru Anar Hətəmov, DQİDK-nın sədr müavini Gündüz İsmayılov və Dövlət Komitəsinin Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov çıxış ediblər. Müzakirələrdə "Multikulturalizm ili" çərçivəsində reallaşdırılan bu səpkili konfransların radikal qrupların gəncləri öz təsir dairəsinə salmasının qarşısının alınması baxımından əhəmiyyəti qeyd edilib.

Müəllim və tələbələrin iştirak etdiyi konfranslarda multikultural və tolerant dəyərlər barədə diskussiyalar aparılıb, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş "Fitnə" sənədli filmi nümayiş olunub.

## Kürdəmirdə



Noyabrın 23-də Kürdəmirdə "Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik" mövzusunda təşkil edilmiş regional konfrans çərçivəsində Kürdəmir rayon Gənclər Evində gənclərin iştirakı ilə tədbir keçirilib.

Rayon ictimaiyyətinin nümayəndələrinin və ziyalıların da iştirak etdiyi tədbirdə tolerant və multikultural dəyərlərimizin gənclər arasında təbliği və dini radikalizmlə mübarizə mövzusunda müzakirələr aparılıb.

Giriş sözü ilə çıxış edən Kürdəmir rayon Gənclər və İdman İdarəsinin rəis müavini Qalib Baxşıyev görüşün əhəmiyyətindən danışaraq bildirib ki, milli-mənəvi dəyərlərin təbliğ edilməsi, eyni zamanda dini maarifçilik işinin aparılması məqsədilə bu cür tədbirlərin keçirilməsi vacibdir. O, milli-mənəvi irsimizin tərkib hissəsi kimi tolerant və multikultural dəyərlərimizin qorunması və təbliği istiqamətində rayon ərazisində həyata keçirilən silsilə tədbirlərdən danışıb.

Dövlət-din münasibətlərindən, bu sahəni tənzimləyən qanunvericilik bazasından danışan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov Dövlət Komitəsinin dini radikalizmlə mübarizə çərçivəsində həyata keçirdiyi tədbirlərdən bəhs edib. Komitənin sədr müavini ölkəmizin zəngin multikultural mühitinə əsas təhlükə törədən potensial və real təhdidlərə diqqət çəkərək, dini radikalizmin doğura biləcəyi mənfi nəticələrdən danışıb. Bildirib ki, məzhəb müxtəlifliyi şəraitində multikultural cəmiyyətlərdə, xüsusilə İslam dininə mənsub toplumlarda ənənəvi İslamın zəifləməsi fonunda xarici təsirlərin güclənməsi prosesi gedir. Dini radikalizmin güclənməsi dinin siyasiləşdirilməsinə, tolerantlığın zəifləməsi isə məzhəbçiliyin güclənməsinə, dini kimliyin milli kimliyə qarşı qoyulmasına, cəmiyyətdə qütbləşmənin və sosial təbəqələşmənin yaranmasına aparıb çıxara bilər. Belə cəmiyyətlərdə qadın hüquqlarının məhdudlaşdırılması, xurafat meyillərinin artması, dünyəvi təhsilə qarşı çıxışların müşahidə olunması xarakterik haldır.

Diskussiya şəraitində keçən tədbirdə dini radikalizmə qarşı birgə mübarizənin vacibliyi, bu sahədə ziyalıların və müəllimlərin üzərinə düşən vəzifələr, eyni zamanda milli-mənəvi dəyərlərimizin qorunması, nümunəvi Azərbaycan gəncinin əsas xüsusiyyətləri barədə geniş fikir mübadiləsi aparılıb.

# Bölgələrdə maarifləndirmə tədbirləri uğurla davam etdirilir

**Prezident İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncamdan irəli gələrək bölgələrdə növbəti tədbirlər keçirilib. Cəmiyyətin maariflənməsində xüsusi rol oynayan bu cür tədbirlər:**

**4 noyabr** - Quba rayon Zizik kənd məscidi dini icması tərəfindən "Azərbaycanda ənənəvi İslam və onun əsas xüsusiyyətləri"; Qobustan rayonu "Heydər" məscidi dini icması tərəfindən "İslamda vəhdət"; Şamaxı rayonu Adnalı kənd məscidi dini icması tərəfindən "İslamda vətən sevgisi"; Balakən rayonunun İtitala kənd dini icması tərəfindən "İslam və milli dəyərlərimiz" mövzularında;



**8 noyabr** - Zaqatala rayonu Yuxarı Tala kənd (2) məscidi dini icması tərəfindən "Ənənəvi dini dəyərlərimiz dini radikalizmə qarşıdır" mövzusunda;

**10 noyabr** - Quba rayon Zizik kənd məscidi dini icması tərəfindən Alekseyevka kəndində "İslamda multikulturalizm" mövzusunda;

**11 noyabr** - Ağstafa rayonu Dağ Kəsəmən kənd "Eyyub ağa" dini icması tərəfindən Köçəsgər kənd 2 saylı tam orta məktəbində "Dini fanatizmin və xurafatçılığın zərərləri" mövzusunda;

**14 noyabr** - Saatlı rayon Varxankənd Cümə məscidi dini icması tərəfindən "İslamda Vətən sevgisi və şəhidlik" mövzusunda;



**15 noyabr** - Şəki şəhəri Mərkəzi Cümə məscidi dini icması tərəfindən "Dini radikalizm və onun fəsadları"; Balakən rayonu İtitala kənd dini icması tərəfindən "Azərbaycan dünyada multikulturalizm və tolerantlıq modeli kimi" mövzularında;



**16 noyabr** - Zaqatala rayonu Yuxarı Tala kənd (2) məscidi dini icması tərəfindən "İslam və millilik" mövzusunda;

**18 noyabr** - Quba rayon Zizik kənd məscidi dini icması tərəfindən "Azərbaycan tolerantlıq mühiti dünyaya nümunə kimi"; Qaradağ rayonu, Qobustan qəsəbəsi "Şamlı" məscidi dini icması tərəfindən "Dini ekstremist fəaliyyətə və radikal təsirlərə qarşı mübarizə"; Qaradağ rayonu, Qobustan qəsəbəsi "Şıxlar" məscidi dini icması tərəfindən "Dini radikalizmin təzahür formaları və onunla mübarizənin əhəmiyyəti" mövzularında;

**22 noyabr** - Şəki şəhəri Mərkəzi Cümə məscidi dini icması tərəfindən "Tolerantlıq: milli-mənəvi dəyərimiz" mövzusunda;



**23 noyabr** - Şəki şəhər Mərkəzi Cümə məscidi dini icması tərəfindən "Multikultural cəmiyyətdə birgəyaşayışı şərtləndirən əsas amillər" mövzusunda;

**24 noyabr** - Şəki şəhər Mərkəzi Cümə məscidi dini icması tərəfindən Daşüz kənd tam orta məktəbində "Dini radikalizmin gənclərin vətənpərvərlik ruhuna mənfi təsiri"; Qobustan şəhəri "Heydər" məscidi dini icması tərəfindən "Dini radikalizm və onunla mübarizə üsulları" mövzularında;

**25 noyabr** - Zərdab rayonu Allahqulubağı kənd məscidi dini icması tərəfindən "Dini ekstremizm və onun təzahür formaları"; Balakən rayonu İtitala kənd dini icması tərəfindən "Dini radikalizmlə mübarizədə ictimai qınaq faktoru"; Şamaxı rayonu Adnalı kənd məscidi dini icması tərəfindən "Milli-mənəvi dəyərlərimiz və gənclik" mövzularında;

**28 noyabr** - Səbail rayonu İçərişəhər Cümə məscidi dini icması tərəfindən "Milli kimliyimizin formalaşmasında dini dəyərlərin rolu" mövzusunda;

**30 noyabr** - Zaqatala rayonu Yuxarı Tala kənd (2) məscidi dini icması tərəfindən "Milli-mənəvi dəyərlərimizdə vəhdət prinsipi" mövzusunda təşkil olunub.

# Beynəlxalq Tolerantlıq Günü ilə bağlı paytaxt və bölgələrdə tədbirlər



Hər il noyabr ayının 16-sı dünyada Beynəlxalq Tolerantlıq Günü kimi qeyd olunur. Bu ənənə 1995-ci ildə UNESCO-nun 50 illiyi münasibətilə təsis edilib. O zaman UNESCO-nun 185 üzv ölkəsi "Tolerantlıq prinsiplərinin izahı" ilə bağlı sənəd qəbul edib. Məqsəd qurumun da nizamnaməsində qeyd olunduğu kimi, dünyada hamını bir-birinə dözümlülük nümayiş etdirərək mehriban qonşular kimi yaşamağa çağırışdır.

Azərbaycan bütün dünyada tolerantlıq örnəyi kimi tanınır. Ümummilli Lider Heydər Əliyevin ölkəmizdə tolerantlığın qorunub saxlanılması istiqamətində həyata keçirdiyi tədbirlər Azərbaycanı müxtəlif milli və mədəni dəyərlərin qovuşma müstəvisinə çevirib. Azərbaycan dünyanın nadir ölkələrindəndir ki, burada bütün millətlər, xalqlar, bütün dinlərin nümayəndələri qarşılıqlı hörmət şəraitində bir ailənin üzvləri kimi yaşayır. Ölkəmizdə dini və milli dözümlülük, tolerantlıq yüksək səviyyədədir. Prezident İlham Əliyevin dindarlarla keçirdiyi görüşlər, Ramazan bayramlarında ənənəvi olaraq din xadimləri ilə iftar süfrələrində birgə iştirakı və bu mərasimlərə Azərbaycanda mövcud digər dini icmaların nümayəndələrinin də qatılması ölkədə tolerant düşüncənin tam bərqərar olduğunu göstərir.



Beynəlxalq Tolerantlıq Günü münasibəti ilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Bakıda və regionlarda silsilə tədbirlər keçirib. Bu qəbildən olan tədbirlər Bakı, Şamaxı, Füzuli rayonu Horadiz şəhəri, Mingəçevir, İsmayıllı, Sumqayıt, Gəncə, Şəki, Lerik, Lənkəran, Qəbələ Nic kəndi, Xətai, Qusar Hil kəndi, Quba Qırmızı qəsəbə, Masallı, Tərtər, Quba və s. şəhər, rayon və kəndlərdə "Tolerantlıq yurdu Azərbaycan", "Tolerantlıq – Azərbaycan xalqının milli zənginliyi kimi", "Azərbaycanda tolerant mühit", "Tolerantlıq – dinlər və millətlərarası dialoqun təminatçısı", "Azərbaycan tolerantlıq ölkəsidir", "Tolerantlıq milli-mənəvi sərvətimizdir", "Azərbaycanda dini tolerantlıq və birgəyaşayış mədəniyyəti", "Tolerantlıq diyarı Azərbaycan" və "Azərbaycan tolerantlığa nümunə diyar kimi" mövzularında keçirilib.

Çıxışlar zamanı ölkə başçısı cənab İlham Əliyevin 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etməsi qeyd olunaraq son dövrlər bu sahədə görülən işlərdən danışılıb. Bildirilib ki, bu gün mütərəqqi dünyanın başlıca demokratik dəyərlərindən biri kimi təbliğ etdiyi tolerantlıq, birgəyaşayış mədəniyyəti xalqımızın əsrlər boyu formalaşan və bir çoxları üçün örnək olan xarakterik xüsusiyyətidir. Vurğulanıb ki, dinindən, irqindən və milli mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquqlarının qanunla qorunduğu Azərbaycan bu gün dünyada multikultural və tolerant məkan kimi mədəniyyətlərin, dinlərin müxtəlifliyini yaşadan, inkişaf etdirən unikal ölkə kimi tanınır. Multikulturalizm və dini tolerantlıq modeli müxtəlif inanc və mədəniyyətlərə sahib Azərbaycan vətəndaşlarının həyat tərzinə çevrilib.

Tədbirlərdə iştirak edən qeyri-İslam dini icmalarının nümayəndələri də öz çıxışlarında ölkəmizdə dini etiqad azadlığının təminatından məmnunluqlarını bildiriblər. Qeyd olunub ki, istər əmək fəaliyyətində, istər qonşuluq münasibətlərində, sosial həyatın hər hansı sahəsində özlərinə qarşı yad münasibət hiss etməyiblər. Azərbaycan Respublikasının vətəndaşı kimi suverenliyimizin qorunması və dövlətçiliyin inkişafında öz məsuliyyətlərini dərk etdiklərini diqqətə çatdırıblar.



## Bölgə xəbərlərimiz

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) paytaxtda və bölgələrdə dini radikalizm və ekstremizmlə mübarizə, milli-mənəvi dəyərlərimizin təbliği, multikultural və tolerant ənənələrimizin təşviqi məqsədilə tədbirlər həyata keçirir. Tədbirlərdə müxtəlif din və məzhəb mənsubları arasında dözümsüzlük, ayrı-seçkilik, qarşıdurma, zorakılıq hallarına yol verilməməsi, habelə dini icmaların



fəaliyyətində tolerantlığın gücləndirilməsi və cəmiyyətdə radikalizm meyillərinin qarşısının alınması məqsədilə maarifləndirici mövzularda çıxışlar olur. Səmərəli diskussiyaların aparıldığı tədbirlərdə respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyəti, hüquq mühafizə orqanı rəhbərləri, gənclər, dini icma sədrləri, din xadimləri, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak edirlər. Belə tədbirlər həm DQİDK-nın təşkilatçılığı, həm də Dövlət Komitəsi ilə müvafiq dövlət qurumları arasında imzalanmış Tədbirlər Planına uyğun olaraq həyata keçirilir. Cari ay ərzində bu qəbildən olan tədbirlər:

**1 noyabr** – Astara şəhər "Qum" məscidində DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Tolerantlıq və multikulturalizmin Azərbaycan modeli"; Sumqayıtda Dövlət Komitəsinin Sumqayıt bölgəsi üzrə şöbəsi və Dövlət Təhlükəsizliyi Xidmətinin Sumqayıt şəhər İdarəsinin birgə təşkilatçılığı ilə "Dini radikalizm və terror" mövzularında;

**2 noyabr** – Zaqatalada DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala Rayon İcra Hakimiyyəti, YAP Zaqatala rayon təşkilatı və Zaqatala rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Dini fundamentalizm və dini radikalizmlə mübarizədə gənclərin rolu" mövzusunda;

**3 noyabr** – Kürdəmirin Atakişili kənd tam orta məktəbində DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Kürdəmir Rayon İcra Hakimiyyəti, Rayon Polis İdarəsi və DTX-nın Kürdəmir Rayon İdarəsinin birgə təşkilatçılığı ilə "Dini radikalizm ümumbəşəri bəladır"; Ağcabədidə DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Ağcabədi rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Müdafiə Nazirliyinin N saylı hərbi hissəsində "Dini radikalizmə qarşı mübarizə" mövzularında;

**4 noyabr** – Sumqayıt şəhərində yerləşən Tarix muzeyində Dövlət Komitəsinin Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Dini radikalizm və terror"; Masallı şəhər Gənclər Mərkəzində Masallı Rayon İcra Hakimiyyəti, DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və "Türkiyə Universitetləri Məzunları" İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Gənclər arasında dini radikalizmə qarşı mübarizədə Azərbaycançılıq ideologiyasının təbliği"; Zərdab şəhər Heydər Əliyev Mərkəzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Zərdab Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini radikalizmlə mübarizədə dini icmaların fəaliyyətinin təşkili" mövzularında;

**7 noyabr** – Ucar 5 saylı tam orta məktəbdə DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Ucar Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Zərərli vərdişlər, narkomaniya, dini radikalizm və onun fəsadları"; Sabirabad rayonunda DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin və DTX-nın Saatlı rayon şöbəsinin birgə təşkilatçılığı ilə "Radikal dini cərəyanlar və onlara qarşı mübarizə üsulları"; İsmayıllı Rayon Mərkəzi Xəstəxanasında Rayon İcra Hakimiyyəti, DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, İsmayıllı Rayon Prokurorluğu və Dövlət Təhlükəsizliyi Xidmətinin İsmayıllı rayon şöbəsinin birgə təşkilatçılığı ilə "Zərərli dini təriqətlər və onların fəsadları" mövzularında;



**8 noyabr** – Sumqayıt "Cümə" məscidində DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Tolerantlıq – dinlər və millətlərarası dialoqun təminatçısı"; Ucar şəhər 4 saylı tam orta məktəbdə DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Ucar rayon Təhsil şöbəsi və rayon Mərkəzi Xəstəxanasının birgə təşkilatçılığı ilə "Zərərli vərdişlər, narkomaniya, dini radikalizm və onun fəsadları" mövzularında;

**9 noyabr** – Lənkəran rayonu Cil kənd "Hüseyniyyə" məscidində DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Bayrağımız qürurumuzdur"



mövzusunda;

**10 noyabr** – Ucar şəhər 6 saylı tam orta məktəbdə DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Ucar Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Radikalizmə qarşı mübarizə metodları"; Masallıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Masallı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dünyəvi dövlətdə din: Azərbaycan modeli"; Şirvan Şəhər İcra Hakimiyyəti, DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi və DTX-nın şəhər şöbəsinin birgə təşkilatçılığı ilə "Dini radikalizmin və ekstremizmin yayılmasına qarşı mübarizə"; DQİDK-nın təşəbbüsü ilə SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin struktur bölməsi olan Sumqayıt Təlim, Tədris mərkəzində "Dini radikalizm – dini təəssübkeşlikdən təkəbbürə" mövzularında;

**11 noyabr** – Astara rayon Mərkəzi kitabxanasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Astara rayon İcra Hakimiyyəti, Astara rayon Gənclər və İdman İdarəsi və "Polisə Dəstək" İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Soyqırımı, terrorizm və dini radikalizm təzahürlərinə qarşı təşəbbüslər"; Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Lənkəran rayonunda yerləşən "N" saylı hərbi hissəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə "Ənənəvi İslam və xarici təsirlər" mövzularında;

**14 noyabr** – Ucar şəhər 2 saylı tam orta məktəbdə DQİDK Ucar bölgəsi üzrə şöbəsi və Ucar Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Zərərli vərdişlərin və zərərli dini cərəyanların fərd və cəmiyyət həyatına mənfi təsirləri"; Masallı şəhər Rafiq Əlihəsənov adına 1 saylı tam orta məktəbində DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, rayonun polis və təhsil şöbələrinin birgə təşkilatçılığı ilə "Gənclərimizi zərərli vərdişlərdən qoruyaq" mövzularında;

**15 noyabr** – Qax rayonunda Qax Rayon İcra Hakimiyyəti, DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Qax Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Dini radikalizmə qarşı birgə mübarizə" mövzusunda;

**16 noyabr** – Saatlıda DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin, Saatlı Rayon İcra Hakimiyyətinin və DTX-nın Saatlı Rayon Şöbəsinin birgə təşkilatçılığı ilə "Dini ekstremizm və ona qarşı mübarizə üsulları" mövzusunda;

**18 noyabr** – Quba rayonunun Xucbala kəndində DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini radikalizmlə mübarizədə gənclərin rolu"; Hacıqabul rayonunda yerləşən Gilan zavodunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Hacıqabul Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini radikalizm və ekstremizmin zərərləri" mövzularında;

**22 noyabr** – Quba rayonunun Küpçal kəndində DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Multikulturalizm: Azərbaycanda təbii yaşayış tərzi"; Suraxanı rayonu Ramana qəsəbəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Şuşa Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini radikalizm və ekstremizmlə mübarizə"; SOCAR Təlim Tədris Sertifikatlaşdırma İdarəsinin Qobustan Regional Təlim Mərkəzində "Azərbaycanda multikulturalizm dəyərləri" mövzularında;

**24 noyabr** – Şirvan şəhərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Şirvan Şəhər İcra Hakimiyyəti və Dövlət Təhlükəsizliyi Xidmətinin birgə təşkilatçılığı ilə dini durumun sabit saxlanılmasına dair Tədbirlər Planına uyğun olaraq "Dini radikalizmin və ekstremizmin yayılmasına qarşı mübarizə" mövzusunda;

**25 noyabr** – Sumqayıt şəhərində yerləşən Qubadlı rayon 2 saylı tam orta məktəbdə DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Dini radikalizm və onun fəsadları"; Hacıqabul rayonunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Hacıqabul Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Dini radikalizm və ekstremizmə qarşı mübarizə"; Binəqədi rayonu 276 nömrəli orta məktəbdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Bakı şəhəri üzrə şöbəsinin təşəbbüsü ilə "Radikalizm və terrorizmin fəsadları" mövzularında keçirilib.

**28 noyabr** – Ucar şəhər Cami məscidində DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Ucar şəhər Cami məscidi dini icmasının birgə təşkilatçılığı ilə "İslam Peyğəmbərinin nümunəvi əxlaqı və mötədillik" mövzusunda;

**29 noyabr** – Ağsu Rayon Mərkəzi Xəstəxanasında DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin, Ağsu Rayon İcra Hakimiyyətinin və DTX-nın Şamaxı regional şöbəsinin birgə təşkilatçılığı ilə "Dini radikalizm və onun fəsadları" mövzusunda keçirilib.

Tədbirlərdə çıxış edən natiqlər Azərbaycanda tarixən mövcud olmuş multikulturalizm, tolerantlıq və dini dözümlülük dəyərlərindən danışaraq, bildiriblər ki, bu ənənə günümüzdə də yüksək şəkildə davam edir. Bütün millətlərin, xal-



qların, dinlərin nümayəndələrinin bir ailə kimi, dinc yanaşı yaşadığı nadir ölkələrdən olan Azərbaycanda dinindən, irqindən, milli mənsubiyyətindən asılı olmayaraq, dövlət tərəfindən hər kəsin hüquq və azadlıqlarının həyata keçirilməsi üçün bütün şərait yaradılıb. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin və onun siyasi kursunun davamçısı Prezident İlham Əliyevin ölkəmizdə tolerantlığın qorunub saxlanılması istiqamətində həyata keçirdiyi tədbirlər Azərbaycanı müxtəlif milli və mədəni dəyərlərin qovuşma məkanına çevirib.

Eyni zamanda, natiqlər müasir dövrdə bəşəriyyətin bəlasına çevrilmiş dini radikalizm, ekstremizm və onun fəsadlarından, radikalizmə qarşı mübarizədə maarifləndirici, profilaktik tədbirlərin görülməsinin vacibliyindən, ölkəmizdə mövcud olan zərərli dini cərəyanların fəaliyyətindən və onlara qarşı mübarizə üsullarından bəhs ediblər. Qeyd olunub ki, bu gün respublikamızda sabitlik və əmin-amanlığın hökm sürməsi Prezident cənab İlham Əliyevin apardığı uğurlu siyasətin nəticəsidir.

Tədbirlərin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# “Dünyəvi dövlətdə din: Azərbaycan modeli”



Noyabrın 18-də Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində, 22-də Goranboy və Samux rayonlarında, 23-də isə Qazax rayonunda “Dünyəvi dövlətdə din: Azərbaycan modeli” mövzusunda tədbirlər keçirilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və müvafiq rayon icra hakimiyyətlərinin (RİH) birgə təşkilatçılığı ilə baş tutan tədbirlərdə RİH nümayəndələri, Dövlət Komitəsinin mərkəzi aparat və bölgə şöbələrinin məsul işçiləri, din xadimləri, dini icma rəhbərləri, dindarlar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirlərdə adıçəkilən rayonlarda dövlət və din münasibətləri istiqamətində görülən işlər barədə ətraflı məlumat verilib, ölkəmizdə dini radikalizm və dini ekstremizm hallarına qarşı mübarizənin tam təmin edildiyi diqqətə çatdırılıb.

Məruzəçilər Ümummilli Lider Heydər Əliyevin ardıcıl və məqsədyönlü siyasəti nəticəsində ölkədə insan hüquqlarının müdafiəsinə dair qanunvericilik bazasının beynəlxalq normalara uyğunlaşdırılması, dövlət-din münasibətlərinin tənzimlənməsi prinsiplərinin təsbiti, dini etiqad azadlığı ilə bağlı hüquqi-normativ aktlara riayət olunmasına nəzarətin gücləndirilməsi, konfessiyalar arasında dözümlülük ənənəsinin möhkəmləndirilməsi, eləcə də dini abidələrimizin bərpası və qorunması istiqamətində görülən işlərdən və bunların əsasında formalaşan mükəmməl dövlət-din münasibətlərindən bəhs ediblər. Bildirilib ki, bu kimi tədbirlərin keçirilməsində əsas məqsəd yeniyetmə və gənclərimizin radikal dini cərəyanların təsiri altına düşməməsi və bu sahədə maarifləndirmə işlərinin aparılmasından ibarətdir.



# Ümumtəhsil məktəblərində “Fitnə” filmi nümayiş etdirilib



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Sumqayıt bölgəsi üzrə şöbəsinin təşəbbüsü ilə cari ay ərzində məktəblərdə Dövlət Komitəsinin sifarişi ilə hazırlanan, dini ekstremizm və radikalizmin fəsadlarından bəhs edən “Fitnə” sənədli filmi nümayiş olunub. Bu qəbildən olan tədbirlər noyabrın 1-də Sumqayıt şəhərində yerləşən 3 nömrəli tam orta məktəbdə; noyabrın 3-də Abşeron rayonu Xırdalan şəhəri 1 nömrəli tam orta məktəbdə; noyabrın 4-də Sumqayıt şəhərində yerləşən 6 nömrəli tam orta məktəbdə; noyabrın 7-də Sumqayıt şəhəri Corat qəsəbəsində yerləşən 7 nömrəli məktəbdə; noyabrın 14-də Sumqayıt şəhərindəki 15 nömrəli tam orta məktəbdə və Fatmayi kənd tam orta məktəbində; noyabrın 21-də Saray qəsəbəsi 3 saylı orta məktəbdə; noyabrın 23-də Sumqayıt şəhərində yerləşən 12 nömrəli tam orta məktəbdə; Abşeron rayonu Xırdalan şəhəri 1 saylı tam orta məktəbdə keçirilib.

Tədbirlərdə “Fitnə” sənədli filmi haqqında qısa məlumat verən natiqlər bildiriblər ki, dini radikalizmin qurbanı olan insanların, həmçinin cinayət məsuliyyətinə cəlb edilən şəxslərin timsalında bu problemin cəmiyyət və dövlət üçün nə qədər təhlükəli olduğu bu film vasitəsilə dolğun şəkildə göstərilir. Şagird və müəllim heyətinə zərərli dini cərəyanlar, onların fəaliyyət istiqamətləri və cəmiyyət üçün təhlükələri barədə danışılan tədbirlərdə vurğulanıb ki, sənədli film insanları, xüsusilə də gəncləri maarifləndirmək, onları yanlış dini cərəyanların təsirindən qorumaq məqsədi daşıyır.



Tədbirlərin sonunda film ətrafında müəllim və şagirdlərin iştirakı ilə geniş müzakirələr aparılıb.

# Qürur mənbəyimiz BAYRAĞIMIZ

Hər bir millətin bayrağı onun milli kimliyinin, mədəniyyətinin, dilinin, dininin, adət-ənənəsinin ifadəsi və dövlətinin atributudur. Hər bir millətin bayrağı onun özünü təmsil edir və bayrağa hörmət millətə hörmət deməkdir. Bu baxımdan, bayraq bütün millətlər üçün xüsusi əhəmiyyət və müqəddəslik daşıyır. Bayraq bizim üçün həm də müstəqilliyimizin rəmzi və qürur mənbəyidir. Üçrəngli bayrağımız səmada dalğalandıqca xalqımızın necə güclü və qüdrətli olduğunu bütün dünyaya nümayiş etdirir. O, özündə dövlətimizin qan yaddaşını, döyüş meydanında, cəbhədə xalqımızın müstəqilliyi uğrunda canından keçən qəhrəman oğul və qızlarımızın qanını daşıyır.

Bu gün Azərbaycan Respublikası üzərində dalğalanan müqəddəs Dövlət Bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, Azərbaycan Xalq Cümhuriyyəti (AXC) Nazirlər Şurasının yerləşdiyi binada qəbul edilmiş və qaldırılmışdır. Üçrəngli bayraq ideyasını isə ilk dəfə Azərbaycan istiqlaliyyətinin ideoloqlarından olan Əli bəy Hüseynzadə gündəmə gətirmişdir. Bu üç rəng XX əsrin əvvəllərindəki milli istiqlal ideologiyamızın üç təməl prinsipini - “Türkləşmək, islamlaşmaq və müasirləşmək” düsturunu ifadə edirdi. Ancaq çox təəssüf ki, 1920-ci ilin 28 aprelində AXC-nin bolşevik Rusiyası tərəfindən işğalından dərhal sonra bayrağımız Azərbaycan Parlamentinin binası üzərindən endirilmiş və xalqımız düz 70 il dövlət atributu kimi bolşevik ideologiyasının məhsulu olan bayrağı istifadə etmək məcburiyyətində qalmışdır.

Həmin bayraq bir də 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edilmişdir. Eyni zamanda, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağımızın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırmışdır.

Ulu Öndər Heydər Əliyev 1993-cü ilin iyununda xalqın təkidi ilə hakimiyyətə qayıtdıqdan sonra ölkədə ictimai-siyasi sabitlik təmin edilmişdir. Üçrəngli bayrağımızın ikinci dəfə dövlət rəmzi kimi təsbit edilməsi də Ümummilli Liderin rəhbərliyi altında hazırlanaraq 1995-ci ildə ümumxalq referendumu ilə qəbul olunmuş Azərbaycan Konstitusiyasında üçrəngli bayraq dövlət rəmzi kimi öz əksini tapmışdır.

Dövlət rəmzlərinə, onların təbliğinə böyük önəm verən Ulu Öndər demişdir: “Azərbaycanın bayrağı sadəcə bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Gərək hər bir evdə Azərbaycan dövlətinin bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun”.

Ümummilli Liderin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyev də Azərbaycanın milli dövlət atributlarını uca tutur və konkret addımları ilə bu ruhu cəmiyyətə aşılayır. Keçmişimizə, milli dəyərlərimizə, tarixi-mədəni irsimizə qayğı ilə yanaşan dövlət başçımız 2009-cu ilin 17 noyabrında imzaladığı Sərəncamla Azərbaycanın üçrəngli bayrağının ilk dəfə rəsmi ucaldığı 9 noyabr (1918-ci il) tarixini “Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü” kimi təsis etmişdir.

Həmçinin cənab Prezident Dövlət bayrağının Azərbaycan vətəndaşlarının milli həmrəyliyinin, vahid məfkurə ətrafında sıx birləşmələrinin başlıca amillərindən biri olduğunu nəzərə alaraq və onun təbliğinin daim diqqət mərkəzində saxlanılmasını təmin etmək məqsədilə 2007-ci il noyabrın 17-də Dövlət Bayrağı Meydanının yaradılması haqqında Sərəncam imzalamışdır. 2007-ci il dekabrın 30-da Bakının Bayıl qəsəbəsində - Hərbi Dəniz Qüvvələrinin bazası yaxınlığında Prezident İlham Əliyevin iştirakı ilə Dövlət Bayrağı Meydanının təməli qoyulmuş, 2010-cu il sentyabrın 1-də isə təntənəli açılış mərasimi keçirilmişdir. Mərasimdə çıxış edən dövlət başçımızın bayrağımızla bağlı fikirləri olduqca qürurvericidir: “Bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq”.

Bu gün hər bir vətənpərvər Azərbaycan oğul və qızının qəlbində bir müqəddəs arzu var: üçrəngli bayrağımızı Azərbaycanın işğal altında olan yaşayış məntəqələri üzərində ucaltmaq! O zaman torpaqlarımızın müdafiəsi uğrunda şəhid olanların qanı yerdə qalmayacaq, ruhları şad olacaq!



*Aygül AĞAYEVA*

# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

## QEYDİYYAT

**Şəki rayonu Turan qəsəbə məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C-699
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Şəki rayonu, Turan qəsəbə məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Mikayıl Xammət oğlu Məmmədov

**Ucar rayonu Rəstəcə kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116D-700
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Ucar rayonu, Rəstəcə kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Ənvər Abdulkərim oğlu Rəhimov

**Salyan rayonu Yolüstü kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C-701
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Salyan rayonu, Yolüstü kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Əhmədağa Oruc oğlu Ələkbərov

**Neftçala rayonu Qırmızıkənd kəndi "İmam Zaman" məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C-702
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Neftçala rayonu, Qırmızıkənd kəndi, "İmam Zaman" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Adil Qiyas oğlu Cavadov

**Şəki rayonu Baş Göynük kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C-703
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Şəki rayonu, Baş Göynük kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: İlham İsfəndiyar oğlu Alıcanov

**Oğuz rayonu Kərimli kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C-704
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Oğuz rayonu, Kərimli kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Əmir Qurban oğlu Kərimov

**Masallı rayonu Babakücə kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C-705
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Masallı rayonu, Babakücə kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Əyyar Ağərəzi oğlu Nuriyev

**Neftçala rayonu I Qaralı kəndi "İmam Əli" məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C-706
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Neftçala rayonu, I Qaralı kəndi, "İmam Əli" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Elxan Ağahəsən oğlu Kərimov

**Şəki rayonu Qoxmuq kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C-707
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Şəki rayonu, Qoxmuq kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Fikirət Həbibillah oğlu Qədirov

**Ucar rayonu Qarabörk kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116D-708
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Ucar rayonu, Qarabörk kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Zahir Məzahir oğlu Babayev

**Göyçay rayonu Mallı-Şıxlı kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116A-709
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Göyçay rayonu, Mallı-Şıxlı kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Fazil Ağa oğlu Məmmədov

**Masallı rayonu Ərkivan qəsəbəsi "Zeynoba" məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 00116C-710
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Masallı rayonu, Ərkivan qəsəbəsi, "Zeynoba" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Rafiq Əvəz oğlu Musayev

**Şirvan şəhəri "Zeynalabidin" məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116A-711
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Şirvan şəhəri, H.Z.Tağıyev küçəsi 12, "Zeynalabidin" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Cəmşid Bahadin oğlu Hüseynov

**Bakı şəhəri Binəqədi rayonu Binəqədi qəsəbəsi "Came" məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116B-712
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi qəsəbəsi, G.Ramazanov küçəsi 105, "Came" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Şabala Şababa oğlu Əliməmmədov

**Lənkəran rayonu Şürük kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C-713
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Lənkəran rayonu, Şürük kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Cəsarət Əzizağa oğlu Hüseynov

**İmişli rayonu Şahverdili kəndi "Əhli-beyt" məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116A-714
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: İmişli rayonu Şahverdili kəndi "Əhli-beyt" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Elnur Tapdıq oğlu Abbasov

**Lənkəran rayonu Balıqçılar qəsəbəsi "Xanım Zəhra" məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C-715
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Lənkəran rayonu, Balıqçılar qəsəbəsi, "Xanım Zəhra" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Abuzər Baba oğlu Xankişiyev

**Lerik rayonu Bırkandul kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C-716
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Lerik rayonu Bırkandul kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Şəfahət Bahadır oğlu Heydərov

**Lənkəran rayonu Hirkan qəsəbə məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C-717
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Lənkəran rayonu Hirkan qəsəbə məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Ayaz Yədulla oğlu Mirzəyev

**İmişli şəhəri "İmam Əli" məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116A-718
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: İmişli şəhəri, M.Müşviq küçəsi, "İmam Əli" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Ramiz Heydar oğlu Atayev

**Lənkəran rayonu Tütəpeştə kəndi "İmam Zaman" məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C-719
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Lənkəran rayonu Tütəpeştə kəndi "İmam Zaman" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Qüvvət Xanağa oğlu Əliyev

**Bakı şəhəri Pirallahı rayonu "Pirallahı" məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116B-720
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Bakı şəhəri, Pirallahı rayonu, Pirallahı qəsəbəsi, Əzizbəyov küçəsində yerləşən məscid
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Baxşiyev Elçin Ağalar oğlu

**Lerik rayonu Hamarmeşə kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C-721
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Lerik rayonu Hamarmeşə kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Məmməd Məli oğlu Məmmədov

**Saatlı rayonu Qarayevkənd kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C-722
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Saatlı rayonu Qarayevkənd kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: İsmayıl Rəhim oğlu Calalov

**Sabirabad rayonu Həşimxanlı kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116C-723
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Sabirabad rayonu Həşimxanlı kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Mirzəbala Məmmədtağı oğlu Tağıyev

**Balakən rayonu Katex kəndi "Mərkəzi" məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116A-724
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Balakən rayonu Katex kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Mirzəbala Məmmədtağı oğlu Tağıyev

**Şabran rayonu Aygünlü kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 14 noyabr 2016-cı il
Qeydiyyat №-si: 100116A-725
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Şabran rayonu Aygünlü kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Səməndər Səməndər oğlu Əliyev

## DƏYİŞİKLİK

**Göyçay rayonu Yeniarx kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 02 aprel 2014-cü il
Qeydiyyat №-si: 100114A1 – 569
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Səmədov Kərim Bilal oğlu, Allahverdiyev Qafur Papur oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Səmədova Eynurə Kazım qızı, Süleymanov Cəmşid Bəxtiyar oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Səmədov Kərim Bilal oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Səmədov Ağakərim Bilal oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi: 03 noyabr 2016-cı il

**Göyçay rayonu Yalman kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 24 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 132
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Novruzəliyev İsmayıl Soltan oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Novruzəliyev Qara Soltan oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi: 03 noyabr 2016-cı il

**Zaqatala rayonu Dombabinə kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 22 yanvar 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 177
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Zaqatala rayonu Dombabinə kənd məscidi dini icmasının adı dəyişdirilərək Zaqatala rayonu Üçüncü Tala kənd məscidi dini icması kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir. Zaqatala rayonu Dombabinə kənd məscidi dini icmasının hüquqi ünvanı dəyişdirilərək Zaqatala rayonu, Üçüncü Tala kənd məscidi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir. Muradov İbrahim Abdulməcid oğlu, Zurabov Ramazan Muxtar oğlu, Şabanov Əhməd Hacıömər oğlu, Davudov Mustafa Şaban oğlu, Həzrətov Həzrət İsayeviç dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Əhmədov Rəcəb Ramazan oğlu, Əhmədov Rafael Saleh oğlu, Nəsibov Nizami Yusif oğlu, Şabanov Mübariz Soltan oğlu, Davudov Maarif Əsədullah oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Dəyişikliklərin qeydiyyat tarixi: 25 noyabr 2016-cı il

**Qəbələ rayonu Soltannuxa kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 28 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 143
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Osmanov Sabir Seyfəddin oğlu, Miranov Sahib Qulu oğlu, Baxşıyev Əmanət Cahangir oğlu, Nurməmmədov Şaban İsmayıl oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Əsədov Garay Əsəd oğlu, Əsədbəyli Babək Xaləddin oğlu, Qiyasəddinli Zaur Bəşir oğlu, Həmidli Kamran Mərdan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Sabitov Mahir Rəşid oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Mahmudov Seymur Sədiyar oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi: 25 noyabr 2016-cı il

Cəmiyyət və Din
№ 11 (304) / NOYABR 2016-cı il

# "Uşaq hüquqları aylığı"





Prezident İlham Əliyevin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda əhalinin müxtəlif qruplarının, o cümlədən uşaqların hüquqlarının müdafiəsi ilə bağlı müddəalar təsbit olunub və uğurla həyata keçirilir. Ölkəmizdə uşaq aylığı ilə əlaqədar müxtəlif tədbirlərin keçirilməsi uşaqların hüquqlarının səmərəli təmininə və təbliğinə, həmçinin onların fəallığına xidmət göstərir. Proqrama uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi paytaxt Bakıda və bölgələrdə bir sıra seminar-treninq, "dəyirmi masa" və konfranslar təşkil edib.

Bu qəbildən olan tədbirlər Quba, Yevlax, Oğuz, Lerik, Yasamal, Lənkəran, Xaçmaz, Ucar, Saatlı, Şabran, Zaqatala, Siyəzən və Hacıqabulda "Səmavi dinlərin uşaq hüquqları haqqında mülahizələri", "Uşaqların mənəvi-əxlaqi tərbiyəsində cəmiyyətin rolu", "Sizin hüquq, vəzifə və məsuliyyətiniz", "Uşaqlar bizim gələcəyimizdir", "Uşaqların zərərli vərdişlərdən qorunması və vətənpərvərlik ruhunda tərbiyə olunmasında maarifləndirici tədbirlərin əhəmiyyəti" və "Uşaq hüquqları milli dəyərlərimizin tərkib hissəsidir" mövzularında keçirilib.

Tədbirlərdə səmavi dinlərin heç birində insanları radikallığa, dinc əhaliyə, əsasən də uşaq, qadın və yaşlılara qarşı zorakılığa çağırışların olmadığı bildirilib. Qeyd olunub ki, uşaqları zərərli vərdişlərdən qorumaq lazımdır və bu yolda valideynlərin üzərinə böyük məsuliyyət düşür.

Tədbirlərdə, həmçinin Azərbaycanda uşaqlar üçün yaradılmış şəraitdən və onların müdafiəsi istiqamətində həyata keçirilən dövlət proqramlarından da danışılıb. Bildirilib ki, insan hüquqlarının təmin olunması hər bir dövlətin demokratiya yolu ilə inkişaf etdiyinin ən bariz göstəricilərindəndir. Ölkəmizdə də bu prinsiplər dövlət siyasəti səviyyəsində tanınır, tətbiq olunur və daima təkmilləşir. Azərbaycan Respublikasının Konstitusiyasında uşaqların hüquqları qorunur və bu hüquqlara dövlət tərəfindən təminat verilir.

## DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

### LƏĞV OLUNAN DİNİ İCMALAR

**Suraxanı rayonu Hövsan kəndi dini icması**
Qeydiyyat tarixi: 07.02.2002-ci il
Qeydiyyat №-si: 58
Suraxanı rayonu Hövsan kəndi dini icması təsisçilərinin 29.09.2016-cı il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 21 noyabr 2016-cı ildə qeydə alınıb.

**Bakı şəhəri Sabunçu rayonu Nardaran qəsəbə dini icması**
Qeydiyyat tarixi: 19.11.2003-cü il
Qeydiyyat №-si: 225
Bakı şəhəri Sabunçu rayonu Nardaran qəsəbə dini icması təsisçilərinin 02.09.2016-cı il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 21 noyabr 2016-cı ildə qeydə alınıb.

**Yeddinci Günün Adventistləri dini icması**
Qeydiyyat tarixi: 31.01.2002-ci il
Qeydiyyat №-si: 29
Yeddinci Günün Adventistləri dini icması təsisçilərinin 24.09.2016-cı il tarixli, 18 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 21 noyabr 2016-cı ildə qeydə alınıb.

**Lənkəran rayonu Liman şəhəri dini icması**
Qeydiyyat tarixi: 29.06.2000-ci il
Qeydiyyat №-si: 377
Lənkəran rayonu Liman şəhəri dini icması təsisçilərinin 27.10.2016-cı il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 28 noyabr 2016-cı ildə qeydə alınıb.

### Yadigar söz

**Uşaq təhlükəsizlikdə olduğu düşüncəsiylə yaşayırsa, başqalarına inanmağı öyrənir.**

*Mariya Montessori, italiyan pedaqoq*

## Bakı və Abşeron üzrə namaz vaxtları (noyabr)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 6:18 | 7:44 | 12:29 | 15:34 | 17:31 | 18:35 |
| 2 | 6:19 | 7:45 | 12:30 | 15:34 | 17:30 | 18:35 |
| 3 | 6:19 | 7:46 | 12:30 | 15:34 | 17:30 | 18:35 |
| 4 | 6:20 | 7:47 | 12:30 | 15:34 | 17:30 | 18:35 |
| 5 | 6:21 | 7:48 | 12:31 | 15:33 | 17:30 | 18:35 |
| 6 | 6:22 | 7:49 | 12:31 | 15:33 | 17:30 | 18:35 |
| 7 | 6:23 | 7:49 | 12:32 | 15:33 | 17:30 | 18:35 |
| 8 | 6:24 | 7:50 | 12:32 | 15:33 | 17:30 | 18:35 |
| 9 | 6:24 | 7:51 | 12:33 | 15:33 | 17:30 | 18:35 |
| 10 | 6:25 | 7:52 | 12:33 | 15:33 | 17:30 | 18:35 |
| 11 | 6:26 | 7:53 | 12:33 | 15:33 | 17:30 | 18:35 |
| 12 | 6:27 | 7:54 | 12:34 | 15:34 | 17:30 | 18:36 |
| 13 | 6:27 | 7:55 | 12:34 | 15:34 | 17:30 | 18:36 |
| 14 | 6:28 | 7:55 | 12:35 | 15:34 | 17:31 | 18:36 |
| 15 | 6:29 | 7:56 | 12:35 | 15:34 | 17:31 | 18:36 |
| 16 | 6:29 | 7:57 | 12:36 | 15:35 | 17:31 | 18:37 |
| 17 | 6:30 | 7:57 | 12:36 | 15:35 | 17:31 | 18:37 |
| 18 | 6:31 | 7:58 | 12:37 | 15:35 | 17:32 | 18:38 |
| 19 | 6:31 | 7:59 | 12:37 | 15:36 | 17:32 | 18:38 |
| 20 | 6:32 | 7:59 | 12:38 | 15:36 | 17:33 | 18:38 |
| 21 | 6:32 | 8:00 | 12:38 | 15:36 | 17:33 | 18:39 |
| 22 | 6:33 | 8:00 | 12:39 | 15:37 | 17:34 | 18:39 |
| 23 | 6:33 | 8:01 | 12:39 | 15:37 | 17:34 | 18:40 |
| 24 | 6:34 | 8:01 | 12:40 | 15:38 | 17:35 | 18:40 |
| 25 | 6:34 | 8:02 | 12:40 | 15:39 | 17:35 | 18:41 |
| 26 | 6:35 | 8:02 | 12:41 | 15:39 | 17:36 | 18:42 |
| 27 | 6:35 | 8:02 | 12:41 | 15:40 | 17:36 | 18:42 |
| 28 | 6:35 | 8:03 | 12:42 | 15:41 | 17:37 | 18:43 |
| 29 | 6:36 | 8:03 | 12:42 | 15:41 | 17:38 | 18:44 |
| 30 | 6:36 | 8:03 | 12:43 | 15:42 | 17:39 | 18:44 |
| 31 | 6:36 | 8:03 | 12:43 | 15:43 | 17:39 | 18:45 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri** ***(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# "Multikulturalizm və tolerantlıq diyarı Azərbaycan" adlı sərgi



Noyabrın 29-da Milli İncəsənət Muzeyində görkəmli Azərbaycan rəssamlarının sənət əsərlərindən ibarət "Multikulturalizm və tolerantlıq diyarı Azərbaycan" adlı sərgi açılıb.

Layihənin müəllifi və rəhbəri, sənətşünas, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi Dilarə Müzəffərlidir. Sərgi Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun dəstəyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Mədəniyyət və Turizm Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilir.

Layihənin məqsədi ölkəmizdə dövlət səviyyəsində təmin edilən multikultural və tolerant mühitin ötən əsrin 50-80-ci illərində rəssamlarımız tərəfindən yaradılan təsviri sənət əsərləri vasitəsilə daha geniş ictimaiyyətə çatdırılması, Azərbaycanın multikulturalizm və tolerantlıq modelinin dünyaya nümunə kimi təqdim olunması, gənclərə multikulturalizm dəyərlərinin aşılanması və tolerantlığın əhəmiyyətinin təbliğidir.

Sərgidə xalq rəssamları Mikayıl Abdullayev, Toğrul Nərimanbəyov, Tahir Salahov, Salam Salamzadə, Kazım Kazımzadə, Maral Rəhmanzadə, Güllü Mustafayeva, Kamil Xanlarov, Böyükağa Mirzəzadə, Nadir Əbdürrəhmanov, Elbəy Rzaquliyev, Cahangir Rüstəmov, Nadir Qasımov, Səhlab Məmmədov, Arif Hüseynov, həmçinin əməkdar incəsənət xadimləri Lətif Feyzullayev, Vəcihə Səmədova, Nəcəfqulu İsmayılov, Hafiz Məmmədov, Toğrul Sadıqzadə və Əbdülxalıq tərəfindən ötən əsrin 50-80-ci illərində yaradılmış, xalqların dostluğunu tərənnüm edən, özündə multikultural və tolerant dəyərləri ehtiva edən rəngkarlıq və qrafika əsərləri nümayiş olunur.

Sərgi üç gün davam edəcək.

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Oqtay ORUCOV *(məsul katib)*, Gennadi ZELMANOVİÇ.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 568

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894